# “AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT REKLAM AGENTLİYİ” PUBLİK HÜQUQİ ŞƏXSİ

**Konsolidasiya edilmiş Maliyyə Hesabatları və Müstəqil Auditorun Hesabatı**
31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə

# "AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT REKLAM AGENTLİYİ" PUBLİK HÜQUQİ ŞƏXSİ

## MÜNDƏRİCAT


| | Səhifə |
|---|---|
| 31 DEKABR 2021-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ KONSOLİDASİYA EDİLMİŞ MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNƏ DAİR BƏYANATI | 2 |
| MÜSTƏQİL AUDİTORUN HESABATI | 3-4 |
| 31 DEKABR 2021-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ KONSOLİDASİYA EDİLMİŞ MALİYYƏ HESABATLARI: | |
| Maliyyə vəziyyəti haqqında konsolidasiya edilmiş hesabatlar | 5 |
| Mənfəət və ya zərər haqqında konsolidasiya edilmiş hesabatlar | 6 |
| Kapitalda dəyişikliklər haqqında konsolidasiya edilmiş hesabatlar | 7 |
| Pul vəsaitlərinin hərəkəti haqqında konsolidasiya edilmiş hesabatlar | 8 |
| Konsolidasiya edilmiş maliyyə hesabatları üzrə qeydlər | 9-35 |

Bu bəyanat "Azərbaycan Respublikasının Dövlət Reklam Agentliyi" Publik Hüquqi Şəxsin (bundan sonra "Agentlik") və onun regional reklam idarələrinin və törəmə müəssisələrinin (birlikdə "Qrup") konsolidasiya edilmiş maliyyə hesabatları ilə bağlı Qrup rəhbərliyinin və müstəqil auditorların göstərilən məsuliyyətlərini fərqləndirmək məqsədi ilə hazırlanmışdır.

Rəhbərlik, 31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə Qrupun maliyyə vəziyyətini, əməliyyat nəticələrini, kapitalda dəyişiklikləri və pul vəsaitlərinin hərəkətini əks etdirən Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") uyğun konsolidasiya edilmiş maliyyə hesabatlarının düzgün hazırlanması üçün məsuliyyət daşıyır.

Konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik aşağıdakılara cavabdehdir :

- Uyğun mühasibat prinsiplərinin seçilməsi və mütəmadi olaraq tətbiq edilməsi;
- Məntiqli və məqsədəuyğun təxminlərin və qərarların qəbul edilməsi;
- Konsolidasiya edilmiş maliyyə hesabatlarının MHBS-na uyğunluğunun bəyan edilməsi və əgər bu standartlardan əhəmiyyətli kənarlaşmalar varsa, bu halların konsolidasiya edilmiş maliyyə hesabatlarında açıqlanması və izah edilməsi;
- Əgər yaxın gələcəkdə Qrup işini normal şərtlər altında davam etdirəcəksə, hesabat tarixinə konsolidasiya edilmiş maliyyə hesabatlarının davamlılıq prinsipi əsasında hazırlaması.

Rəhbərlik, həmçinin aşağıdakılara görə məsuldur:

- Qrup daxilində səmərəli və keyfiyyətli daxili nəzarət sisteminin işlənib hazırlanması, qurulması və möhkəmləndirilməsi;
- Qrupun konsolidasiya edilmiş maliyyə hesabatlarının MHBS-na uyğun olaraq düzgün hazırlanması və Qrupun maliyyə vəziyyətini istənilən zaman düzgün əks etdirən mühasibat sisteminin təşkil edilməsi;
- Yerli mühasibat sisteminin qanunvericilik və Azərbaycan Respublikasının mühasibat standartlarına uyğun olaraq təşkil edilməsi;
- Mümkün imkanlardan istifadə edərək Qrupun aktivlərinin qorunmasının təşkil olunması;
- Saxtakarlıq, yanlışlıq və digər qanunauyğunsuzluq hallarının müəyyən edilməsi və qarşısının alınması.

31 dekabr 2021-ci il tarixinə başa çatmış il üzrə konsolidasiya edilmiş maliyyə hesabatları 24 İyun 2022-ci il tarixində Qrupun rəhbərliyi tərəfindən təsdiq edilmişdir.

**Rəhbərlik adından:**

| | |
|---|---|
| **Aydın İbadov** | **Aydın Bəşirov** |
| **İdarə Heyətinin sədri** | **Aparatın rəhbəri** |
| 29 Noyabr 2022-ci il | 29 Noyabr 2022-ci il |
| Bakı, Azerbaijani Respublikası | Bakı, Azərbaycan Respublika |

Bakı şəhəri, Nərimanov rayonu, G.Qədirbəyova küçəsi 16
012 489 71 56, 051 229 74 43/45
info@efc.az
www.efc.az
012 4897156
VÖEN: 1702318661

# MÜSTƏQİL AUDİTORUN HESABATI
# "AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT REKLAM AGENTLİYİ" PUBLİK HÜQUQİ ŞƏXSİN TƏSİSÇİSİNƏ VƏ RƏHBƏRLİYİNƏ:
## RƏY

Biz "Azərbaycan Respublikasının Dövlət Reklam Agentliyi" Publik Hüquqi Şəxsin ("Agentlik") eləcə də onun regional reklam idarələrinin və törəmə müəssisələrinin (birlikdə "Qrup") 31 dekabr 2021-ci il tarixinə təqdim edilən maliyyə vəziyyəti haqqında konsolidasiya edilmiş hesabatlarından, həmin tarixdə başa çatan il üzrə mənfəət və ya zərər haqqında konsolidasiya edilmiş hesabatlarından, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında konsolidasiya edilmiş hesabatlarından, habelə mühüm mühasibat uçotu prinsipləri və digər izahedici qeydlərin icmalından ibarət olan konsolidasiya edilmiş maliyyə hesabatlarının auditini apardıq.
Bizim rəyimizcə, əlavə edilən konsolidasiya edilmiş maliyyə hesabatları bütün əhəmiyyətli aspektlər baxımından Qrupun 31 dekabr 2021-ci il tarixinə maliyyə vəziyyətini və həmin tarixdə başa çatan il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (bundan sonra "MHBS") uyğun olaraq düzgün əks etdirir.

***Rəy üçün əsas***

Biz auditi Beynəlxalq Audit Standartlarına uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətimiz hesabatımızın "Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti" bölməsində əks olunur. Biz Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının dərc etdiyi Peşəkar Mühasiblərin Etika Məcəlləsinə uyğun olaraq Qrupdan asılı olmadan müstəqil şəkildə fəaliyyət göstəririk. Biz Etika Məcəlləsinə uyğun olaraq, etika ilə bağlı digər öhdəliklərimizi yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutu rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

***Konsolidasiya edilmiş maliyyə hesabatlarına görə rəhbərliyin və korporativ idarəetmə üzrə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti***

Rəhbərlik hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarının MHBS-na uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsi, eləcə də saxtakarlıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli təhriflər olmayan maliyyə hesabatlarının hazırlanması üçün rəhbərliyin zəruri hesab etdiyi daxili nəzarət sisteminə görə məsuliyyət daşıyır.
Konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik Qrupu ləğv etmək və ya fəaliyyətini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, Qrupun fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fəaliyyətin fasiləsizliyinə dair məlumatların açıqlanmasına və fəaliyyətin fasiləsizliyi prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

Korporativ idarəetmə üzrə cavabdeh olan səlahiyyətli şəxslər Qrupun konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

***Konsolidasiya edilmiş maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti***

Bizim məqsədimiz bütövlükdə konsolidasiya edilmiş maliyyə hesabatlarında saxtakarlıq və ya səhv nəticəsində əhəmiyyətli təhriflərin olub-olmadığına dair kifayət qədər əminlik əldə etmək və

rəyimizin daxil olduğu auditor hesabatını təqdim etməkdir. Kifayət qədər əminlik əminliyin yüksək səviyyəsidir, lakin Beynəlxalq Audit Standartlarına uyğun olaraq auditin aparılması zamanı mövcud olan bütün əhəmiyyətli təhriflərin həmişə aşkar olunacağına zəmanət vermir. Təhriflər saxtakarlıq və ya səhv nəticəsində yarana bilər və fərdi va ya məcmu olaraq istifadəçilərin konsolidasiya edilmiş maliyyə hesabatları əsasında qəbul edəcəyi iqtisadi qərarlara təsir göstərmək ehtimalı olduğu halda əhəmiyyətli hesab edilir.
Beynəlxalq Audit Standartlarına uyğun aparılan auditin bir hissəsi olaraq, biz audit zamanı peşəkar mühakimə tətbiq edirik və peşəkar skeptisizm nümayiş etdiririk. Biz həmçinin:

- Konsolidasiya edilmiş maliyyə hesabatlarında saxtakarlıq və ya səhv nəticəsində əhəmiyyətli təhriflərin olması riskini müəyyən edir və qiymətləndirir, həmin risklərə qarşı audit prosedurlarını hazırlayır və həyata keçirir və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirik. Saxtakarlıq nəticəsində yaranmış əhəmiyyətli təhriflərin aşkar edilməməsi riski səhvlər naticəsində yaranmış əhəmiyyətli təhriflərin aşkar edilməməsi riskindən daha yüksəkdir, çünki saxtakarlığa gizli sövdələşmə, fırıldaqçılıq, məlumatların bilərəkdən göstərilməməsi, yanlış təqdimat va ya daxili nəzarət sistemində sui-istifadə halları daxil ola bilər.
- Qrupun daxili nəzarət sisteminin effektivliyinə dair rəy bildirmək üçün deyil, şəraitə uyğun audit prosedurlarını işləyib hazırlamaq üçün daxili nəzarət sistemi üzrə məlumat əldə edirik.
- Rəhbərlik tərəfindən istifadə edilən uçot siyasətlərinin uyğunluğunu, habelə uçot təxminləri və müvafiq açıqlamaların münasibliyini qiymətləndiririk.
- Fəaliyyətin fasiləsizliyi prinsipinin rəhbərlik tərəfindən istifadə edilməsinin uyğunluğuna və əldə edilən audit sübutları əsasında Qrupun fasiləsiz fəaliyyət göstərmək imkanını ciddi şübhə altına qoya bilən hadisə və şəraitlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığına dair qənaətə gəlirik. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu qənaətinə gəldikdə, auditor rəyimizdə konsolidasiya edilmiş maliyyə hesabatlarındakı müvafiq məlumatların açıqlanmasına diqqət yetirməli və ya belə məlumatların açıqlanması yetərli olmadıqda, rəyimizdə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Lakin sonrakı hadisələr və şəraitlər Qrupun fasiləsiz fəaliyyətini dayandırmasına səbəb ola bilər.
- Məlumatların açıqlanması da daxil olmaqla, konsolidasiya edilmiş maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin konsolidasiya edilmiş maliyyə hesabatlarında düzgün təqdim edilib-edilmədiyini qiymətləndiririk.

Biz korporativ idarəetmə üzrə cavabdeh olan səlahiyyətli şəxslərə digər məsələlərlə yanaşı, planlaşdırılan audit prosedurlarının həcmi və müddəti, habelə əhəmiyyətli audit nəticələri, o cümlədən audit zamanı daxili nəzarət sistemində aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar barədə məlumat veririk.

Ekspert Finans Konsaltinq MMC-nin Direktoru : Zöhrə Misiyafova

Ekspert Finans Konsaltinq MMC-nin Auditoru : Mübariz Əmiraslanov

29 Noyabr 2022-ci il
Bakı, Azərbaycan Respublikası

## “AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT REKLAM AGENTLİYİ” PUBLİK HÜQUQİ ŞƏXSİ

### MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA KONSOLİDASİYA EDİLMİŞ HESABAT
### 31 DEKABR 2021-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ
*(Azərbaycan Manatı ilə)*

| | Qeyd | 31 Dekabr 2021 | 31 Dekabr 2020 |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| CARİ AKTİVLƏR | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 6 | 2.760.255 | 1.183.094 |
| Ticarət və digər debitor borcları | 7 | 2.347.390 | 1.967.074 |
| Ehtiyatlar | 8 | 2,063,473 | 595,059 |
| Öncədən ödənmiş vergilər | 7 | 318,532 | 103,927 |
| **Cəmi cari aktivlər** | | **7.489.650** | **3.849.163** |
| UZUNMÜDDƏTLİ AKTİVLƏR | | | |
| Əmlak və avadanlıqlar | 9 | 4.086.767 | 4.266.851 |
| Qeyri-maddi aktivlər | 10 | 1,375,734 | 1,220,132 |
| **Cəmi uzunmüddətli aktivlər** | | **5.462.501** | **5.486.983** |
| **CƏMİ AKTİVLƏR** | | **12,952,151** | **9,336,146** |
| **ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | | |
| CARİ ÖHDƏLİKLƏR | | | |
| Ticarət və digər kreditor borcları | 11 | 1,517,257 | 1,482,315 |
| Vergi öhdəlikləri | | 163,416 | 119,366 |
| **Cəmi cari öhdəliklər** | | **1.680.673** | **1.601.681** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **1,680,673** | **1,601,681** |
| KAPİTAL | | | |
| Nizamnamə fondu | 12 | 10.000 | 10.000 |
| Ehtiyat kapitalı | 12 | 2,629,689 | 2,629,689 |
| Bölüşdürülməmiş mənfəət | 12 | 8,631,789 | 5,094,776 |
| **Cəmi kapital** | | **11,271,478** | **7,734,465** |
| **CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | **12,952,151** | **9,336,146** |

**Rəhbərlik adından**

**Aydın İbadov**
**İdarə Heyətinin sədri**

29 Noyabr 2022-ci il
Bakı, Azərbaycan Respublikası

**Aydın Başirov**
**Aparatın rəhbəri**

29 Noyabr 2022-ci il
Bakı, Azərbaycan Respublikası

9-35-ci səhifələrdə verilmiş qeydlər konsolidasiya edilmiş maliyyə hesabatlarının tərkib hissəsini təşkil edir.

## "AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT REKLAM AGENTLİYİ" PUBLİK HÜQUQİ ŞƏXSİ

### MƏNFƏƏT VƏ YA ZƏRƏR HAQQINDA KONSOLİDASİYA EDİLMİŞ HESABAT
### 31 DEKABR 2021-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ
*(Azərbaycan Manatı ilə)*

| | Qeyd | 2021 | 2020 |
|---|---|---|---|
| Reklam yayım haqqlarından gəlir | | 15,754,693 | 14,365,361 |
| Reklamçılıq xidmətlərindən gəlir | | 1,459,950 | 1,185,556 |
| Digər gəlir | | 470,996 | 435,467 |
| Reklam daşıyıcılarının satışından gəlir | | 567,680 | 1,627,617 |
| Reklam qurğularının montaj və demontaj gəlirləri | | 149,515 | 107,210 |
| **Cəmi gəlirlər** | | **18,402,834** | **17,721,211** |
| İnsan resursları üzrə xərclər | 13 | (10,036,478 | (9,338,892) |
| Əsas vəsaitlər və qeyri-maddi aktivlərin amortizasiya | 9,10 | (1,086,911) | (1,145,111) |
| İcarə xərcləri | | (942.244) | (932.847) |
| Satılmış malların maya dəyəri | | (1,014,106) | (1,638,200) |
| Təmir və saxlanma xərcləri | | (307.742) | (249.486) |
| Ezamiyyə xərcləri | | (42,692) | (46,843) |
| Digər əməliyyat xərcləri | | (1,314,110) | (1,914,577) |
| Korporativ sosial məsuliyyət xərcləri | 16 | (200,000) | |
| Ticarət debitor borcları üzrə dəyərsizləşmə | | 10.809 | (171.826) |
| Rabitə və informasiya xidmətləri | | (198,461) | (163,929) |
| **Cəmi xərclər** | | **(15,131,935** | **(15,601,711** |
| **VERGİDƏN ƏVVƏL MƏNFƏƏT** | | **3.270.899** | **2.119.500** |
| Mənfəət vergisi krediti | | | |
| **İL ÜZRƏ XALİS MƏNFƏƏT** | | **3.270.899** | **2.119.500** |

**Rəhbərlik adından:**

**Aydın İbadov**
**İdarə Heyətinin sədri**

29 Noyabr 2022-ci il
Bakı, Azərbaycan Respublikası

**Aydın Başirov**
**Aparatın rəhbəri**

29 Noyabr 2022-ci il
Bakı, Azərbaycan Respublikası

9-35-ci səhifələrdə verilmiş qeydlər konsolidasiya edilmiş maliyyə hesabatlarının tərkib hissəsini təşkil edir.

## "AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT REKLAM AGENTLİYİ" PUBLİK HÜQUQİ ŞƏXSİ

### KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA KONSOLİDASİYA EDİLMİŞ HESABAT
### 31 DEKABR 2021-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ

*(Azərbaycan Manatı ilə)*

| | Qeyd | Nizamnamə fondu | Ehtiyat kapitalı | Bölüşdürülməmiş mənfəət | Cəmi kapital |
|---|---|---|---|---|---|
| **1 yanvar 2020** | | **10,000** | **1,535,689** | **4,069,276** | **5,614,965** |
| Əvvəlki illərdə mənfəət və ya zərərdə tanınmış ehtiyat kapitalının düzəlişi | | | 1,094,000 | (1,094,000) | - |
| İl üzrə xalis mənfəət | | | | 2,119,500 | |
| **31 dekabr 2020** | | **10,000** | **2,629,689** | **5,094,776** | **7,734,465** |
| Mühasibat uçotu prinsiplərində dəyişiklik | | | | 266,114 | **266,114** |
| İl üzrə xalis mənfəət | | | | 3,270,899 | **3,270,899** |
| **31 dekabr 2021** | | **10,000** | **2,629,689** | **8,631,789** | **11,271,478** |

**Rəhbərlik adından:**

**Aydın İbadov**
**İdarə Heyətinin sədri**

29 Noyabr 2022-ci il
Bakı, Azərbaycan Respublikası

**Aydın Bəşirov**
**Aparatın rəhbəri**

29 Noyabr 2022-ci il
Bakı, Azərbaycan Respublikası

9-35-ci səhifələrdə verilmiş qeydlər konsolidasiya edilmiş maliyyə hesabatlarının tərkib hissəsini təşkil edir.

## PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA KONSOLİDASİYA EDİLMİŞ HESABAT
## 31 DEKABR 2021-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ
*(Azərbaycan Manatı ilə)*

| | Qeyd | 2021 | 2020 |
|---|---|---|---|
| **ƏMƏLİYYAT FƏALİYYƏTİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:** | | | |
| Mənfəət vergisindən əvvəl mənfəət | | 3,270,899 | 2,119,500 |
| *Düzəlişlər:* | | | |
| Əmlak, avadanlıq və qeyri-maddi aktivlərin amortizasiyası | 9,10 | 1,086,911 | 1,145,111 |
| Digər xərclər | | 150,293 | 233,118 |
| **Dövriyyə kapitalında dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | | **4,508,103** | **3,497,729** |
| Ticarət və digər debitor borclarda dəyişiklik | 7 | (380,316) | (854,085) |
| Vergilər üçün qabaqcadan ödəmələrdə dəyişiklik | 7 | (214,596) | 103,821 |
| Mal-material ehtiyatlarında dəyişiklik | 8 | (1,468,414) | (579,382) |
| Ticarət və digər kreditor borclarda dəyişiklik | 11 | 34,944 | (574,226) |
| Vergi öhdəliklərində dəyişiklik | | 44,050 | 14,194 |
| **Mənfəət vergisindən əvvəl əməliyyat fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | | **2,523,771** | **1,608,207** |
| Ödənilmiş mənfəət vergisi | | | |
| **Əməliyyat fəaliyyəti üzrə daxil olan xalis pul vəsaitləri** | | **2,523,771** | **1,608,207** |
| **İNVESTİSİYA FƏALİYYƏTİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:** | | | |
| Əmlak və avadanlıqların alınması | | (587,018) | (934,159) |
| Qeyri-maddi aktivlərin alınması | | (359,593) | (527,134) |
| Əlaqəli tərəflərə verilmiş avanslarda xalis dəyişiklik | | | |
| **İnvestisiya fəaliyyəti üzrə istifadə edilən xalis pul vəsaitləri** | | **(946,611)** | **(1,461,293)** |
| **Pul vəsaitləri və onların ekvivalentlərində xalis artım/(azalma)** | 6 | **1,577,160** | **146,914** |
| **İlin əvvəlinə pul vəsaitləri və onların ekvivalentləri** | 6 | **1,183,095** | **1,036,181** |
| **İlin sonuna pul vəsaitləri və onların ekvivalentləri** | 6 | **2.760.255** | **1.183.095** |

**Rəhbərlik adından:**

**Aydın İbadov**
**İdarə Heyətinin sədri**

**Aydın Başirov**
**Aparatın rəhbəri**

29 Noyabr 2022-ci il
Bakı, Azərbaycan Respublikası

29 Noyabr 2022-ci il
Bakı, Azərbaycan Respublikası

9-35-ci səhifələrdə verilmiş qeydlər konsolidasiya edilmiş maliyyə hesabatlarının tərkib hissəsini təşkil edir.

# 1. GİRİŞ

"Azərbaycan Respublikasının Dövlət Reklam Agentliyi" Publik Hüquqi Şəxsi ("Agentlik") Azərbaycan Respublikası Prezidentinin 31 iyul 2017-ci il tarixli 1566 nömrəli Fərmanı ilə Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq publik hüquqi şəxs formasında yaradılmış və 04 avqust 2017-ci il tarixində Azərbaycan Respublikası Vergilər Nazirliyi yanında Milli Gəlirlər Departamentinin Hüquqi şəxslərin dövlər qeydiyyatı idarəsində 1702211061 nömrəli VÖEN ilə dövlət qeydiyyatından keçmişdir.

Agentlik tamamilə Azərbaycan Respublikasına ("Dövlət") məxsusdur və 31 dekabr 2021-ci və 2020-ci il tarixlərinə Agentliyə yekun nəzarəti Dövlət həyata keçirir.

Agentlik, onun regional reklam idarələri və törəmə müəssisələri hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarında birlikdə Qrup adlandırılır. 31 dekabr 2021-ci il tarixinə Qrupun konsolidasiya edilmiş maliyyə hesabatlarına aşağıdakı regional reklam idarələri və törəmə müəssisələr daxildir:

1. Bakı Şəhər Reklam İdarəsi;
2. Sumqayıt Regional Reklam İdarəsi;
3. Gəncə Regional Reklam İdarəsi;
4. Bərdə Regional Reklam İdarəsi;
5. Şəki Regional Reklam İdarəsi;
6. Lənkəran Regional Reklam İdarəsi;
7. Şirvan Regional Reklam İdarəsi;
8. Quba Regional Reklam İdarəsi;
9. "İNNOVA İnnovativ Reklamçılıq Şirkəti" MMC.

**Əsas fəaliyyət istiqamətləri**

Agentliyin fəaliyyətinin əsas məqsədi açıq məkanda reklam daşıyıcılarının yerləşdirilməsi, reklam daşıyıcılarında yerləşdirilən reklamların istehsalı (hazırlanması) və yayımlanması sahəsində vahid tənzimləmənin və nəzarətin həyata keçirilməsini təmin etməkdir.

**Agentliyin hüquqi və fəaliyyət göstərdiyi ünvanı**

Agentliyin hüquqi ünvanı:
Nizami küçəsi, ev 96E, Səbail rayonu, Bakı şəhəri, AZ1010, Azərbaycan

Agentliyin fəaliyyət göstərdiyi ünvanı:
Dalğa Plaza, 7-ci mərtəbə, Neftçilər prospekti 24, Bakı şəhəri, AZ 1095, Azərbaycan

# 2. ƏSAS MÜHASİBAT PRİNSİPLƏRİ

**Hesabatların uyğunluğunun bəyanatı**
Qrupun hazırkı konsolidasiya edilmiş maliyyə hesabatları Beynəlxalq Mühasibat Standartları Şurası tərəfindən dərc edilmiş Maliyyə Hesabatlarının Beynəlxalq Standartları ("MHBS") və

Beynəlxalq Maliyyə Standartlarına Şərhlər Komitəsi ("MHBSŞK") tərəfindən dərc edilmiş şərhlər əsasında hazırlanmışdır.

**Konsolidasiyanın prinsipləri**

Konsolidasiya edilmiş maliyyə hesabatları 31 dekabr 2021-ci il tarixinə Agentliyin, onun regional reklam idarələri və törəmə müəssisələrinin maliyyə hesabatlarından ibarətdir. Regional reklam idarələri və törəmə müəssisələri Qrupun fəaliyyətindən fayda əldə etmək məqsədilə maliyyə və əməliyyat siyasətlərini idarə etməkdən ibarət nəzarəti olan və səsvermə hüquqlarının yarısından çox iştirak payına sahib olan bütün müəssisələrdir.

Zəruri olduqda, istifadə edilən uçot siyasətinin Qrupun qəbul etdiyi uçot siyasətinə uyğun olması üçün regional reklam idarələrin və törəmə müəssisələrin maliyyə hesabatlarına düzəlişlər edilir. Qrupun üzvləri arasında olan əməliyyatlarla əlaqədar bütün qrupdaxili aktivlər və öhdəliklər, kapital, gəlir, xərc və pul vəsaitlərinin hərəkəti konsolidasiya zamanı bütünlüklə silinir.

Törəmə müəssisənin mülkiyyət payında nəzarətin itirilməsi ilə nəticələnməyən dəyişiklik kapital əməliyyatı kimi uçota alınır.

Qrup törəmə müəssisə üzərində nəzarət hüququnu itirirsə, bu zaman o, əlaqəli aktivlərin (o cümlədən qudvilin), öhdəliklərin, qeyri-nəzarət iştirak payının və kapitalın digər komponentlərinin tanınmasını dayandırır, nəticədə əldə edilən gəlir və ya zərər mənfəət və ya zərərdə tanınır. Qalan investisiyalar ədalətli dəyəri ilə tanınır.

**Cari və uzunmüddətli təsnifat**

Qrup maliyyə vəziyyəti haqqında konsolidasiya edilmiş hesabatda aktiv və öhdəlikləri cari/uzunmüddətli təsnifat əsasında təqdim edir. Aktiv aşağıdakı hallarda cari aktiv kimi təsnif edilir:

- normal əməliyyat dövründə satılması gözlənilir və ya satılması və ya istifadəsi planlaşdırılır;
- əsasən ticarət məqsədləri üçün saxlanılır;
- hesabat tarixindən on iki ay sonra reallaşdırılması gözlənilir; və ya
- hesabat tarixindən sonra ən azı on iki ay ərzində öhdəliyi ödəmək üçün mübadiləsi və ya istifadəsi məhdudlaşdırıldığı hallar istisna olmaqla pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentidir.

Bütün digər aktivlər uzunmüddətli aktivlər kimi təsnif edilir.

Öhdəlik aşağıdakı hallarda cari öhdəlik kimi təsnif edilir:

- normal əməliyyat dövründə ödənilməsi gözlənilir;
- əsasən ticarət məqsədləri üçün saxlanılır;
- hesabat tarixindən sonra on iki ay ərzində ödənilməlidir; və ya
- hesabat tarixindən sonra ən azından on iki ay ərzində öhdəliyin ödənilməsini təxirə salmaq üçün şərtsiz hüquq yoxdur.

Qrup bütün digər öhdəlikləri uzunmüddətli öhdəliklər kimi təsnif edir.

**Fasiləsizlik prinsipi**

Bu konsolidasiya edilmiş maliyyə hesabatları Qrupun yaxın gələcəkdə fəaliyyətini normal şərtlər altında davam etdirəcəyi ehtimalı nəzərə alınaraq hazırlanmışdır.

Rəhbərlik hesab edir ki, Qrupun yaxın gələcəkdə ləğv olunmasına, fəaliyyətini dayandırmağa və ya Azərbaycan Respublikasının qanunları və ya normativ aktları əsasında kreditorlara qarşı müdafiə axtarışına istək və ya ehtiyac olmadan fəaliyyətini davam etdirəcək. Buna görə, aktivlər və öhdəliklər ad fəaliyyətin gedişində Qrupun aktivləri reallaşdırmaq və öhdəlikləri yerinə yetirmək qabiliyyətinə malik olduğu fərziyyəsi ilə hesabatlarda əks etdirilmişdir.

Davamlılıq prinsipi təxminlərinin rəhbərlik tərəfindən dəyərləndirilməsi zamanı naməlum olan gələcək hadisələr və ya şərtlər üzrə müəyyən təxminlərin edilməsi vacibdir.

**Təqdimatın digər əsasları**

Bu konsolidasiya edilmiş maliyyə hesabatları Qrupun funksional valyutası olan Azərbaycan manatı ("AZN") ilə təqdim edilmişdir. Bu konsolidasiya edilmiş maliyyə hesabatları, tarixi dəyər prinsiplərinə əsasən hazırlanmışdır.

Qrup mühasibat uçotu siyasətini Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun şəkildə təşkil edir. Bu konsolidasiya edilmiş maliyyə hesabatlarını hazırlayarkən yerli mühasibat prinsiplərinə uyğun tərtib edilmiş mühasibat sistemindən istifadə edilmiş və hesabatlara MHBS-na uyğunlaşdırılmaq məqsədilə düzəlişlər edilmişdir. Bu düzəlişlərə əməliyyatların iqtisadi mahiyyətini əks etdirmək üçün müəyyən təsnifləşdirilmələr, həmçinin müəyyən aktiv və öhdəliklərin, eləcə də gəlir və xərclərin konsolidasiya edilmiş maliyyə hesabatlarındakı maddələrə uyğunlaşdırılması məqsədilə edilən yenidən təsnifləndirilmələr aiddir.

Əsas mühasibat prinsipləri üzrə xülasə aşağıda təqdim edilir:

**Maliyyə alətləri - əsas qiymətləndirinə üsulları**

Təsnifat formalarından asılı olaraq maliyyə alətləri ədalətli dəyərdə və ya amortizasiya olunmuş dəyərdə qeydə alınır. Həmin qiymətləndirmə üsulları aşağıda əks etdirilir.

*Ədalətli dəyər* ölçmə tarixində bazar iştirakçıları arasında aparılan müntəzəm əməliyyatlar zamanı aktivin satılmasından alına bilən və ya öhdəliyin köçürülməsinə görə ödənilə bilən məbləğdir. Ədalətli dəyər ölçülərkən aktivin satılması və ya öhdəliyin köçürülməsi əməliyyatının aşağıdakı yerlərdən birində aparılması ehtimal edilir:

- aktivin və ya öhdəliyin əsas bazarı və ya
- əsas bazar olmayanda, aktivin və ya öhdəliyin ən əlverişli bazarı.

Qrupun əsas və ya ən əlverişli bazara çıxışı olmalıdır. Aktivin və ya öhdəliyin ədalətli dəyəri bazar iştirakçıları aktivi və ya öhdəliyi qiymətləndirərkən istifadə etdiyi fərziyyələri istifadə etməklə ölçülür və ehtimal edilir ki, bazar iştirakçıları bu zaman öz hərəkətlərində ən yaxşı iqtisadi mənafelərini güdürlər.

Qeyri-maliyyə aktivinin ədalətli dəyəri ölçülərkən bazar iştirakçısının aktivi maksimal və ən yaxşı şəkildə istifadə etməklə və ya həmin aktivi maksimal və ən yaxşı şəkildə istifadə edəcək digər bazar iştirakçısına satmaqla iqtisadi fayda əldə etmək qabiliyyəti nəzərə alınır.

Qrup mövcud şəraitdə münasib olan və ədalətli dəyəri ölçmək üçün kifayət qədər məlumatları olan, müvafiq bazar məlumatlarını maksimal istifadə edən və müşahidə edilməyən məlumatların istifadəsini minimuma endirən qiymətləndirmə üsullarını istifadə edir.

Maliyyə hesabatlarında ədalətli dəyəri ölçülən və ya təqdim edilən bütün aktivlər və öhdəliklər ədalətli dəyərin ölçülməsi üçün ümumiyyətlə əhəmiyyətli olan ən aşağı səviyyəli giriş məlumatları əsasında ədalətli dəyər iyerarxiyasının daxilində aşağıda təsvir olunan kateqoriyalara bölünür:

Səviyyə 1 - Oxşar aktivlər və ya öhdəliklər üçün fəal bazarlarda kvotasiya edilmiş (təshih edilməmiş) qiymətləri mövcud olanlar.

- Səviyyə 2 - Ədalətli dəyərin ölçülməsi üçün əhəmiyyətli olan ən aşağı səviyyəli giriş məlumatları birbaşa və ya dolayısı ilə müşahidə edilən qiymətləndirmə üsulları.
- Səviyyə 3 - Ədalətli dəyərin ölçülməsi üçün əhəmiyyətli olan ən aşağı səviyyəli giriş məlumatları müşahidə edilməyən qiymətləndirmə üsulları.

Maliyyə hesabatlarında dövri şəkildə tanınan aktivlər və öhdəliklər üçün Qrup hər hesabat dövrünün sonunda kateqoriyalara bölməni yenidən qiymətləndirərək iyerarxiyanın daxilində Səviyyələr arasında köçürmələrin baş verib-vermədiyini müəyyən edir (ədalətli dəyərin ölçülməsi üçün ümumiyyətlə əhəmiyyətli olan ən aşağı səviyyəli giriş məlumatları əsasında).

*İlkin dəyər* alış tarixinə aktivi almaq üçün ödənilmiş pul vəsaitləri və ya pul vəsaitləri ekvivalentlərinin məbləğini və yaxud verilmiş digər resursların ədalətli dəyərini əks etdirir və əməliyyat xərclərini ehtiva edir. İlkin dəyərlə qiymətləndirmə yalnız bazar qiymətləri olmayan və ədalətli dəyəri etibarlı şəkildə ölçülə bilməyən pay alətlərindəki investisiyalara tətbiq edilir.

*Əməliyyat xərcləri* əlavə xərcləri əks etdirir və birbaşa olaraq maliyyə alətinin alışı, buraxılması və ya satışı ilə bağlıdır. Əlavə xərclər əməliyyatın həyata keçirilmədiyi təqdirdə yaranmayan xərclərdir. Əməliyyat xərclərinə agentlərə (satış üzrə agentlər kimi fəaliyyət göstərən işçilər daxil olmaqla), məsləhətçilərə, brokerlərə və dilerlərə ödənilmiş haqq və komissiyalar, tənzimləyici orqanlar və fond birjalarına ödəmələr, eləcə də mülkiyyət hüququnun köçürülməsi üzrə vergilər və rüsumlar daxildir. Borc öhdəlikləri üzrə mükafat və ya diskontlar, maliyyələşdirmə xərcləri, daxili inzibati və ya saxlama xərcləri əməliyyat xərclərinə daxil edilmir.

*Amortizasiya olunmuş maya dəyəri* əsas məbləğin qaytarılmasını çıxmaqla, lakin hesablanmış faizləri daxil etməklə, maliyyə aktivləri üçün isə gözlənilən kredit zərərləri (GKZ) üçün ehtiyatı çıxmaqla aktivlərin ilkin dəyərini əks etdirir. Hesablanmış faizlərə ilkin uçot zamanı təxirə salınmış əməliyyat xərclərinin və effektiv faiz metodundan istifadə etməklə ödəniş məbləği üzrə hər hansı mükafat və ya diskontun amortizasiyası daxildir. Hesablanmış faiz gəlirləri və faiz xərcləri, o cümlədən hesablanmış kupon gəlirləri və amortizasiya olunmuş diskont və ya mükafat (verilmə zamanı təxirə salınmış komissiyalar daxil olmaqla, əgər varsa) ayrıca

göstərilmir və konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabatda müvafiq maddələrin balans dəyərinə daxil edilir.

*Effektiv faiz metodu* maliyyə alətinin balans dəyəri üzrə sabit faiz dərəcəsinin (effektiv faiz dərəcəsi) təmin edilməsi üçün faiz gəlirləri və ya xərclərinin müvafiq dövr ərzində bölüşdürülməsi metodudur. Effektiv faiz dərəcəsi, təxmin edilən gələcək pul ödənişlərini və ya daxilolmaları (kreditlər üzrə gələcək zərərlər xaric olmaqla) maliyyə alətinin gözlənilən fəaliyyət müddəti ərzində və ya müvafiq hallarda daha qısa müddət ərzində maliyyə alətinin xalis balans dəyərinə diskontlaşdıran dəqiq dərəcədir. Effektiv faiz dərəcəsi maliyyə aləti üçün nəzərdə tutulan dəyişkən faiz dərəcəsi üzrə kredit spredini əks etdirən mükafatlar və ya diskont və yaxud bazar qiymətlərindən asılı olaraq müəyyən edilməyən digər dəyişkən amillər istisna olmaqla, faiz dərəcələrinin növbəti dəyişdirilmə tarixinə qədər dəyişkən faizli alətlər üzrə pul vəsaitlərinin hərəkətini diskont etmək üçün istifadə edilən faiz dərəcəsidir. Bu cür mükafatlar və ya diskontlar maliyyə alətinin gözlənilən tədavül müddəti ərzində amortizasiya edilir. Diskont dəyərinin hesablanmasına müqavilə tərəfləri arasında ödənilmiş və ya alınmış effektiv faiz dərəcəsinin tərkib hissəsini təşkil edən bütün komissiyalar daxildir. İlkin tanınma zamanı alınmış və ya yaranmış kredit üzrə dəyərsizləşmiş aktivlər üçün effektiv faiz dərəcəsi kredit riski nəzərə alınaraq uyğunlaşdırılır, yəni müqavilə üzrə ödənişlər deyil, ilkin tanınmada gözlənilən pul vəsaitlərinin hərəkətinə əsasən hesablanır.

**Maliyyə aktivləri**

***İlkin tanınma və ölçmə***

Maliyyə aktivləri ilkin tanınmada sonradan amortizasiya hesablanmış dəyərlə, digər ümumi gəlir (DÜG) vasitəsilə ədalətli dəyərlə tanınan aktivlər və ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks etdirilən alətlər kimi təsnifləşdirilir.

İlkin tanınmada maliyyə aktivlərinin təsnifatı maliyyə aktivləri üzrə müqavilə ilə nəzərdə tutulmuş pul vəsaitlərinin hərəkətinin xüsusiyyətlərindən və Qrupun bunları idarə etmək üçün seçdiyi biznes modeldən asılıdır. Əhəmiyyətli maliyyələşdirmə komponentinin daxil olmadığı və ya Qrupun praktik vasitənin tətbiq etdiyi ticarət debitor borcları istisna olmaqla Qrup ilk öncə maliyyə aktivlərini ədalətli dəyərlə ölçür və ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks etdirilən alətlər kimi tanınan aktivlər üçün əməliyyat xərclərini əlavə edir. Əhəmiyyətli maliyyələşdirmə komponentinin daxil olmadığı və ya Qrupun praktik vasitənin tətbiq etdiyi ticarət debitor borcları 15 saylı MHBS əsasında müəyyənləşdirilən əməliyyat qiyməti ilə ölçülür.

Maliyyə aktivinin amortizasiya dəyəri ilə və ya DÜG vasitəsilə ədalətli dəyərlə təsnifləşdirilməsi və ölçülməsi üçün qalan əsas məbləğ üzrə yalnız əsas məbləğin və faizlərin ödənilməsini ("YƏMFÖ") təşkil edən pul vəsaitlərinin hərəkəti yaradılmalıdır. Bu qiymətləndirməyə "YƏMFÖ testi" deyilir və bu, hər bir alət üzrə ayrıca aparılır.

Qrupun maliyyə aktivlərini idarə etmək üçün seçdiyi biznes modeli onun pul vəsaitlərinin hərəkətini yaratmaq məqsədilə maliyyə aktivlərinin idarəedilməsi metodunu təsvir edir. Başqa sözlə, Qrupun biznes modeli pul vəsaitlərinin hərəkətinin müqavilədən, maliyyə aktivlərinin satışından və ya onların hər ikisindən yaranacağını müəyyən edir.

Qanunvericiliklə və ya bazar razılaşmaları ilə ümumi şəkildə müəyyən edilmiş müddət ərzində aktivlərin çatdırılmasını tələb edən maliyyə aktivlərinin alınması və ya satılması əməliyyatları alqı-satqı tarixində, yəni Qrup aktivi almaq və ya satmaq öhdəliyini üzərinə götürdüyü tarixdə tanınır.

***Sonrakı ölçülmə***

Sonrakı ölçülmə məqsədilə maliyyə aktivləri 4 kateqoriyaya təsnifləşdirilir:

- amortizasiya olunmuş dəyərlə maliyyə aktivləri (borc alətləri);
- Məcmu gəlirləri və zərərləri yenidən bölüşdürməklə DÜG vasitəsilə ədalətli dəyərlə maliyyə aktivləri (borc alətləri);
- Uçotdan çıxardanda məcmu gəlirləri və zərərləri yenidən bölüşdürmədən DÜG vasitəsilə ədalətli dəyərlə maliyyə aktivləri (kapital alətləri);
- Ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks etdirilən maliyyə aktivləri.

*Amortizasiya olunmuş dəyərlə maliyyə aktivləri (borc alətləri)*

Bu kateqoriya Qrupa daha uyğundur. Aşağıdakı hər iki şərt yerinə yetirilərsə, Qrup maliyyə aktivini amortizasiya olunmuş dəyərlə ölçməlidir:

- Maliyyə aktivi biznes modeli çərçivəsində və onlarla bağlı müqavilə üzrə pul vəsaitlərini toplamaq məqsədilə saxlanılır; və
- Maliyyə aktivi üzrə müqavilə şərtləri müəyyən olunmuş tarixlərdə qalan əsas məbləğ üzrə əsas vəsaitlərdən və faizdən ibarət olan pul vəsaitlərinin yaranmasına səbəb olur.

Amortizasiya olunmuş dəyərlə maliyyə aktivləri sonradan Effektiv Faiz Dərəcəsi (EFD) metodundan istifadə etməklə ölçülür və dəyərsizləşmə hesablanır. Gəlir və zərərlər mənfəət və ya zərərdə aktiv uçotdan çıxarılanda, dəyişiklik ediləndə və ya dəyərsizləşəndə tanınır.

Qrupun amortizasiya hesablanmış dəyərlə maliyyə aktivlərinə ticarət debitor borcları daxildir.

Aşağıdakı hər iki şərt yerinə yetirilərsə, Qrup borc alətlərini DÜG ilə ədalətli dəyərlə ölçməlidir:

- Maliyyə aktivi biznes modeli çərçivəsində və onlarla bağlı həm müqavilə üzrə pul vəsaitlərini toplamaq, həm də satılmaq məqsədilə saxlanılır və
- Maliyyə aktivi üzrə müqavilə şərtləri müəyyən olunmuş tarixlərdə qalan əsas məbləğ üzrə əsas vəsaitlərdən və faizdən ibarət olan pul vəsaitlərinin yaranmasına səbəb olur.

DÜG ilə ədalətli dəyərlə borc alətləri üçün faiz gəliri, xarici valyutanın yenidən qiymətləndirilməsi və dəyərsizləşmə zərərləri və ya qaytarmalar mənfəət və ya zərər haqqında hesabatda tanınır və amortizasiya hesablanmış dəyərlə maliyyə aktivləri ilə eyni qaydada hesablanır. Ədalətli dəyərdə qalan dəyişikliklər DÜG ilə tanınır. Uçotdan çıxarılanda DÜG-də tanınmış məcmu ədalətli dəyərdə dəyişiklik mənfəət və ya zərərə yenidən bölüşdürülür.

Qrupun DÜG ilə ədalətli dəyərlə borc alətləri mövcud deyil.

*DÜG ilə ədalətli dəyərlə maliyyə aktivləri (kapital alətləri)*

İlkin tanınmada Qrup 32 saylı *"Maliyyə alətləri: Təqdimatı"* adlı MUBS əsasında kapital tərifinə uyğun olan bəzi kapital investisiyalarını ticarət üçün saxlanılan alətlər kimi deyil, kapital alətləri kimi təsnif etmək üçün yekun seçim edə bilər. Belə təsnifat alətlər üzrə fərdi şəkildə müəyyən edilir.

Bu kapital alətləri üzrə gəlir və zərərlər heç zaman mənfəət və ya zərərə aid edilmir. Ödəmə hüququ müəyyən ediləndə, dividendlər mənfəət və ya zərərdə digər gəlir kimi tanınır. Lakin Qrup alətin dəyərinin bir hissəsinin qaytarılması olan belə daxilolmalardan faydalanırsa, belə gəlirlər DÜG-də tanınır. DÜG vasitəsilə ədalətli dəyərlə kapital alətləri üzrə dəyərsizləşmənin qiymətləndirilməsi aparılmır.

*Ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan maliyyə aktivləri*

Qrupun saxladığı ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan maliyyə aktivlərinə ticarət üçün saxlanılan maliyyə aktivləri, ilkin tanınmada ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan maliyyə aktivləri və ya ədalətli dəyərlə ölçülməsi mütləq olan aktivlər daxildir. Yaxın zamanda satış və ya yenidən alış məqsədi ilə əldə olunarsa, maliyyə aktivləri ticarət üçün saxlanılan aktivlər kimi təsnif olunur. Effektiv hecinq alətləri kimi təyin olunmayan törəmə alətlər, o cümlədən ayrılmış əlaqədar törəmə alətlər də satış üçün saxlanılan aktivlər kimi təsnif olunur. Yalnız əsas məbləğ və faizlərin ödənilməsini təşkil etməyən pul vəsaitlərinin hərəkətini yaradan maliyyə aktivləri, biznes modeldən asılı olmayaraq, mənfəət və ya zərərdə ədalətli dəyərlə təsnifləşdirilir. Borc alətlərinin amortizasiya hesablanmış dəyərlə və ya DÜG vasitəsilə ədalətli dəyərlə təsnifləşdirilməsi üçün yuxarıda təsvir edilən meyarlara baxmayaraq borc alətləri, bununla uçot uyğunsuzluğu aradan qaldırılar və ya əhəmiyyətli dərəcədə azaldılarsa, ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan maliyyə aktivləri kimi təyin edilə bilər.
Ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan maliyyə aktivləri maliyyə vəziyyəti haqqında hesabatda ədalətli dəyərlə tanınır, ədalətli dəyərdə xalis dəyişikliklər isə mənfəət və ya zərər haqqında hesabatda tanınır.

Hibrid müqavilənin tərkib hissəsi olan, maliyyə öhdəliyini və ya qeyri-maliyyə əsas müqaviləni ehtiva etdirən asılı törəmə alət aşağıdakı hallarda əsas müqavilədən ayrılır və ayrıca alət kimi uçota alınır: iqtisadi xüsusiyyətlər və risklər əsas müqavilə ilə sıx əlaqəli deyildir, asılı törəmə alətlə eyni şərtləri olan ayrıca alət törəmə alət anlayışına uyğundur və hibrid müqavilə ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks etdirilməyən alət kimi ölçülmür. Asılı törəmə alətlər ədalətli dəyərlə ölçülür, ədalətli dəyərdə dəyişikliklər mənfəət və ya zərərdə tanınır. Müqavilə əsasında tələb olunacaq pul vəsaitlərinin hərəkətini əhəmiyyətli dərəcədə dəyişən müqavilənin şərtlərində dəyişiklik olanda və ya maliyyə aktivi ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks etdirilən aktivlər kateqoriyasından xaric yenidən təsnifləşdiriləndə yenidən qiymətləndirmə aparılır.
Maliyyə aktivinə dair əsas müqaviləni ehtiva etdirən hibrid müqavilə daxilində asılı törəmə alət ayrıca uçota alınmır. Maliyyə aktivi, asılı törəmə alətlə birlikdə, tam şəkildə ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks etdirilən maliyyə aktivi kimi təsnifləşdirilməlidir.

***Uçotdan çıxarma***

Maliyyə aktivi (və ya müvafiq hallarda maliyyə aktivinin bir hissəsi və ya analoji maliyyə aktivləri qrupunun bir hissəsi) aşağıdakı hallarda uçotdan (yəni Qrupun konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabatından) çıxarılır:

- Aktivdən pul vəsaitlərini əldə etmək hüquqlarının müddəti başa çatmışdır;
- Qrup özünün aktivdən pul vəsaitlərini almaq hüquqlarını üçüncü tərəfə köçürmüş və ya

üzərinə aktivdən pul vəsaitlərini "tranzit" razılaşması əsasında tam məbləğdə və çox yubanmadan ödəmək öhdəliyini götürmüşdür və ya Qrup: (a) aktiv üzrə risk və səmərələrin böyük hissəsini köçürmüş; (b) aktiv üzrə risk və səmərələrin böyük hissəsini nə köçürmüş, nə də özündə saxlamış, lakin aktiv üzrə nəzarət hüququnu köçürmüşdür.

Qrup aktivdən pul vəsaitlərini almaq hüququnu köçürdükdə və ya "tranzit" razılaşmasına qoşulduqda, mülkiyyət hüququ ilə bağlı risk və faydaları saxlayıb-saxlamadığını və nə dərəcədə saxladığını qiymətləndirir. Qrup nə aktiv üzrə risk və səmərələrin böyük hissəsini köçürmüş, nə də özündə saxlamışdırsa, nə də aktiv üzrə nəzarət hüququnu köçürmüşdürsə, aktiv Qrupun həmin aktivdə davam edən iştirakı həddində əks etdirilir. Bu halda Qrup əlaqəli öhdəliyi də tanıyır. Köçürülmüş aktiv və əlaqəli öhdəlik Qrupun saxladığı hüquq və öhdəlikləri əks etdirən əsaslarla ölçülür.

Aktivdə iştirakın köçürülmüş aktiv üzrə zəmanət formasında davam etməsi aktivin ilkin balans dəyəri və Qrupdan tələb oluna biləcək maksimal ödəniş məbləğindən daha az olanı ilə ölçülür.

***Maliyyə aktivlərinin dəyərsizləşməsi***

Qrup ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunmayan bütün borc alətləri üçün gözlənilən kredit zərərləri (GKZ) üçün ehtiyatı tanıyır. GKZ müqaviləyə uyğun olaraq ödəniləcək müqavilədə nəzərdə tutulan pul vəsaitlərinin hərəkəti ilə Qrupun alınmasını gözlədiyi bütün pul vəsaitlərinin hərəkəti arasında fərqi ilkin effektiv faiz dərəcəsinə yaxın dərəcə ilə diskontlaşdırmaqla müəyyən edilir.

GKZ iki mərhələdə müəyyən edilir. İlkin tanınmadan sonra kredit riski əhəmiyyətli artmayan kredit öhdəlikləri üçün GKZ növbəti 12 aylıq dövr ərzində mümkün olan defolt hadisəsindən irəli gələn kredit zərərləri üçün ayrılır (IZaGKZ). İlkin tanınmadan sonra kredit riski əhəmiyyətli artan kredit öhdəlikləri üzrə kredit ehtiyatı aktivin qalan müddəti ərzində yaranması gözlənilən kredit zərərlərinə (aktivin müddəti ərzində gözlənilən kredit zərəri və ya AMəGKZ) əsaslanır.

Ticarət debitor borcları və müqavilə aktivləri üçün Qrup GKZ-nin hesablanmasında sadələşdirilmiş yanaşma tətbiq edir.

Beləliklə, Qrup kredit riskində dəyişiklikləri izləmir, əvəzinə hər hesabat tarixində AMəGKZ əsasında kredit zərərini tanıyır. Qrup debitorlara və iqtisadi mühitə xas olan perspektiv amilləri nəzərə almaqla düzəliş edilmiş Qrupun keçmiş dövrlər üzrə kredit zərəri əsasında ehtiyat matrisasını yaratmışdır.

DÜG ilə ədalətli dəyərlə borc alətləri üçün Qrup aşağı kredit riskinin sadələşdirilməsini tətbiq edir. Hər bir hesabat tarixində Qrup lazımsız xərc və ya səy sərf etmədən əldə edilə bilən bütün əsaslı və təsdiqlənən məlumatlardan istifadə edərək borc alətinin aşağı kredit riskinə məruz qalıb-qalmadığını qiymətləndirir. Belə qiymətləndirmə apararkən Qrup borc alətinin daxili kredit reytinqini yenidən qiymətləndirir. Bundan əlavə, Qrup müqavilə ödənişləri 30 gündən çox gecikdiriləndə kredit riskində əhəmiyyətli artımın mövcud olduğunu hesab edir.

Müqavilə üzrə qalan məbləğlərin tam şəkildə Qrupun saxladığı hər hansı kredit təminatları nəzərə alındıqdan əvvəl əldə edilə bilməsi ehtimalının zəif olduğuna işarə edən daxili və ya xarici məlumat mövcud olduğu təqdirdə maliyyə aktivi üzrə defoltun baş verdiyi hesab edilə

bilər. Maliyyə aktivi müqavilə ilə nəzərdə tutulmuş pul vəsaitlərinin hərəkətinin bərpa ediləcəyi əsaslı olaraq gözlənilməyəndə silinir.

**Maliyyə öhdəlikləri**

***İlkin tanınma və ölçmə***

Maliyyə öhdəlikləri ilkin tanınma zamanı, müvafiq olaraq, ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan maliyyə öhdəlikləri, kreditlər və borc öhdəlikləri və ya effektiv hecinqdə hecinq aləti kimi təyin olunmuş törəmə alətləri kimi təsnif edilir.

Maliyyə öhdəlikləri ilkin olaraq ədalətli dəyərlə tanınır və kreditlər, borclar və kreditor borcları halında birbaşa aid edilən əməliyyat xərcləri çıxılır. Qrupun maliyyə öhdəliklərinə ticarət və digər kreditor borcları, qısamüddətli və uzunmüddətli kreditlər daxildir.

***Sonrakı ölçmə***

Maliyyə öhdəliklərinin ölçülməsi onların aşağıda göstərilən təsnifatından asılıdır:

*Ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan maliyyə öhdəlikləri*

Ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan maliyyə öhdəlikləri və ticarət üçün saxlanılan maliyyə öhdəlikləri və ilkin tanınmada Ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan maliyyə öhdəlikləri kimi təyin edilmiş maliyyə öhdəlikləri daxildir.

Maliyyə öhdəlikləri yaxın zamanda geri alınmaq məqsədilə qəbul edilirsə ticarət üçün saxlanılan öhdəliklər kimi təsnifləşdirilir. Bu kateqoriyaya eyni zamanda 9 saylı MHBS-də müəyyən edildiyi qaydada hecinq münasibətlərində hecinq aləti kimi təyin olunmayan törəmə maliyyə alətləri daxildir. Ayrılmış əlaqəli törəmə alətlər də effektiv hecinq aləti kimi təyin edilmədiyi hallarda ticarət üçün saxlanılan alətlər kimi təsnifləşdirilir.

Ticarət üçün saxlanılan öhdəliklər üzrə gəlir və ya zərərlər mənfəət və ya zərər haqqında hesabatda tanınır.

İlkin tanınma tarixində ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan maliyyə öhdəlikləri kimi tanınmış öhdəliklər ilkin tanınma tarixində və yalnız 9 saylı MHBS-də nəzərdə tutulan meyar qarşılananda təyin olunur. Qrup hər hansı maliyyə öhdəliyini ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan öhdəlik kimi təyin etməmişdir.

*Kreditlər və borc öhdəlikləri*

Bu kateqoriya Qrup üçün daha uyğundur. İlkin tanınmadan sonra faiz hesablanan kreditlər və borc öhdəlikləri daha sonra effektiv faiz dərəcəsi metodundan istifadə etməklə amortizasiya hesablanmış dəyərlə qiymətləndirilir. Gəlirlər və zərərlər mənfəət və ya zərər və digər ümumi gəlir haqqında hesabatda öhdəliklərin tanınması dayandırıldıqda, eləcə də amortizasiya prosesi vasitəsilə əks etdirilir. Amortizasiya hesablanmış dəyər satınalma zamanı tətbiq edilən endirimi və ya əlavə qiyməti və effektiv faiz dərəcəsinin ayrılmaz hissəsi olan haqq və xərcləri nəzərə almaqla hesablanır. EFD-nin amortizasiyası mənfəət və ya zərər haqqında hesabatda maliyyə

xərclərinə daxil edilir. Bu kateqoriya faiz hesablanan kreditlərə və borc öhdəliklərinə tətbiq edilir.

***Tanınmanın dayandırılması***

Maliyyə öhdəliyinin tanınması bu halda dayandırılır ki, həmin öhdəlik ya dayandırılmış, ya ləğv olunmuş, ya da müddəti bitmiş olsun. Əgər mövcud maliyyə öhdəliyi həmin kreditor qarşısında fərqli şərtlərlə başqa öhdəliklə əvəz edilərsə və ya mövcud öhdəliyin şərtləri əhəmiyyətli dərəcədə dəyişdirilərsə, bu cür əvəzedilmə və ya dəyişiklik ilkin öhdəliyin tanınmasının dayandırılması və yeni öhdəliyin tanınması kimi qəbul edilir və müvafiq balans dəyərlərindəki fərq mənfəət və ya zərər haqqında hesabatda öz əksini tapır.

**Maliyyə alətlərinin qarşılıqlı əvəzləşdirilməsi**

Qrup maliyyə aktivləri və maliyyə öhdəliklərinin tanınmış məbləğlərini qarşılıqlı əvəz etmək üçün qanuni hüquqa malik olduğu və ya hesablaşmanı xalis əsasda həyata keçirmək, ya da eyni vaxtda aktivi reallaşdırmaq və öhdəliyi yerinə yetirmək niyyəti olduğu halda, qarşılıqlı əvəzləşdirir və konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabatda xalis məbləğ kimi təqdim edir.

**Pul vəsaitləri və onların ekvivalentləri**

Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentlərinə kassada olan nağd pul, bank hesablarındakı tələb edilənədək əmanət və ilkin ödəmə müddəti üç ay və ya az olan digər qısamüddətli və yüksək likvidli investisiyalar daxildir.

**Ticarət və digər debitor borcları**

Ticarət və sair debitor borcları ilk öncə ədalətli dəyərlə tanınır və sonra effektiv faiz metodundan istifadə etməklə, dəyərsizləşmə ehtiyatını çıxaraq, amortizasiya hesablanmış dəyərlə ölçülür. Debitor borcları Qrupun müəyyən şərtlərdən asılı olaraq ödəniş almaq hüququndan ibarətdir.

**Kreditor borcları**

Kreditor borcları qarşı tərəfin müqavilə üzrə öz öhdəliklərini yerinə yetirməsi zamanı qeydə alınır. Kreditor borcları ilkin olaraq ədalətli dəyərdə uçota alınır və sonradan effektiv faiz metoduna əsasən amortizasiya olunmuş dəyərdə ölçülür.

**Əmlak və avadanlıqlar**

Əmlak və avadanlıqlar yığılmış amortizasiya və ehtimal edilən dəyər azalmaları üzrə ehtiyatlar çıxılmaqla tarixi dəyəri ilə tanınır.

Tikilməkdə olan və xidmətə verilməmiş aktivlər üzrə amortizasiyanın hesablanması bu tip aktivlərin xidmət üçün yararlı olduğu tarixdən etibarən hesablanmağa başlayır.

Köhnəlmə, əmlak və avadanlıqların qalıq dəyərinə onların faydalı iqtisadi ömrü nəzərə alınmaqla hesablanmış dərəcələrdən istifadə etməklə tətbiq edilir. Faydalı iqtisadi ömür

təxminləri, qalıq dəyərləri və amortizasiya metodları hər bir hesabat tarixində yenidən təhlil edilir və təxminlərdə olan dəyişikliklərin təsiri prospektiv olaraq aşağıdakı təxmini faydalı xidmət müddəti tətbiq edilir:

Qrupun əmlak və avadanlıqlarının amortizasiya dərəcələri aşağıda göstərilir

| | |
|---|---|
| İstehsalat binaları | 20 il |
| Maşın və avadanlıqlar | 18.35% |
| Nəqliyyat vasitələri | 22.00% |

Təmir və saxlama xərcləri baş verdiyi zaman tanınır və kapitalizasiya kriteriyalarına uyğun gəlməsi halları istisna olmaqla mənfəət və zərər hesablarında əməliyyat xərcləri kimi tanınır.

Hər bir hesabat dövrünün sonunda Agentlik öz əmlak və avadanlıqlarını dəyərsizləşmə zərərlərinin baş verməsini təyin etmək məqsədi ilə təhlil edir. Əgər belə hal mövcud olarsa belə aktiv üzrə əldə edilməsi mümkün olan məbləğ təyin edilir və dəyərsizləşmə zərərinin məbləği (əgər varsa) hesablanır. Fərdi aktiv üzrə əldə edilməsi mümkün olan məbləğin təyin edilməsi mümkün olmadıqda Agentlik aktivin aid olduğu nağd pul əmələ gətirən biznes vahidinin qalıq dəyərini təhlil edir.

Əgər aktiv (və ya aktivin aid olduğu nağd pul əmələ gətirən biznes vahidinin) üzrə əldə edilməsi mümkün olan məbləğ aktivin (və ya aktivin aid olduğu nağd pul əmələ gətirən biznes vahidinin) qalıq dəyərindən azdırsa onun qalıq dəyəri qaytarılması mümkün olan məbləğə qədər azaldılır.

Dəyərsizləşmə zərərlərinə səbəb olan hallar növbəti dövrlərdə aradan qalxdıqda aktivin (və ya aktivin aid olduğu nağd pul əmələ gətirən biznes vahidinin) qalıq dəyəri yenidən təyin edilmiş məbləğə qədər artırılır amma yeni təyin edilmiş qalıq dəyəri aktivin (və ya aktivin aid olduğu nağd pul əmələ gətirən biznes vahidinin) keçmiş dövrlərdə dəyərsizləşmə itkilərinin tanınmasından öncə mövcud olan qalıq dəyərindən daha çox ola bilməz. Dəyərsizləşmə zərərlərinin geri qaytarılması dərhal mənfəət və zərər hesablarında tanınır. Aktiv, yenidən qiymətləndirmə metoduna görə uçota alındıqda qalıq dəyərinin yüksəlməsindən yaranan fərq yenidən qiymətləndirmə nəticəsində dəyərin artması kimi tanınır.

Silindikdə, satıldıqda və ya istifadəsinin davam etdirilməsi zamanı gələcəkdə iqtisadi faydanın əldə edilməsi təxmin edilmədikdə əmlak və avadanlıqların tanınmasına xitam verilir. Əmlak və avadanlıqların tanınmasına xitam verilməsi nəticəsində yaranan mənfəət və zərərlər mənfəət və ya zərər haqqında hesabatda mənfəət və ya zərərin tərkibində tanınır.

**Qeyri-maddi aktivlər**

Ayrılıqda əldə edilmiş qeyri-maddi aktivlər ilkin tanınmada maya dəyəri ilə ölçülür. İlkin tanınmadan sonra qeyri-maddi aktivlər bütün yığılmış amortizasiya və bütün yığılmış dəyərsizləşmə zərərləri çıxılmaqla maya dəyəri ilə uçota alınır.

Qrupun daxilində yaradılmış qeyri-maddi aktivlər, kapitallaşdırılmış inkişaf xərcləri istisna olmaqla, kapitallaşdırılmır və əlaqəli məsrəf həmin məsrəfin meydana gəldiyi dövrdə mənfəət və ya zərərin tərkibində göstərilir. Qeyri-maddi aktivlərə kompüter proqramları və inkişaf layihələri daxildir. Qeyri- maddi aktivlərə faydalı iqtisadi istifadə müddətləri boyunca bərabər hissələrə

bölünməklə amortizasiya hesablanır və qeyri-maddi aktivin dəyərsizləşə biləcəyini göstərən hər hansı əlamət olduqda dəyərsizləşmə baxımından qiymətləndirmə aparılır. Qeyri-maddi aktiv üçün amortizasiya müddəti və amortizasiya metoduna ən azı hər hesabat dövrünün sonunda yenidən baxılır. Gözlənilən faydalı istifadə müddəti və ya aktivin özündə təcəssüm etdiyi gələcək iqtisadi səmərənin gözlənilən əldə olunma strukturundakı dəyişikliklər, müvafiq olaraq, amortizasiya müddəti və ya metodunun dəyişdirilməsi yolu ilə hesabata alınır və uçot ehtimallarında dəyişikliklər hesab olunur. Qeyri-maddi aktivlər üzrə amortizasiya xərcləri mənfəət və ya zərər haqqında hesabatda əks olunur.

Qeyri-maddi aktivin uçotdan silinməsindən irəli gələn gəlir və ya zərərlər xaric etmədən əldə edilən xalis mədaxil ilə aktivin balans dəyəri arasındakı fərq kimi ölçülür və aktiv uçotdan silinəndə mənfəət və ya zərər haqqında hesabatda mənfəət və ya zərərin tərkibində tanınır.

**Mal-material ehtiyatları**

Mal-material ehtiyatları maya dəyəri və xalis satış dəyəri arasında ən aşağı olan dəyərdə qeydə alınır. Mümkün xalis satış dəyəri, hesablanmış tamamlama və satış məsrəfləri çıxılmaqla, hesablanmış adi fəaliyyət zamanı satış qiymətidir.

Maya dəyəri orta çəki metodu ilə müəyyən edilir. Maya dəyərinə birbaşa alış xərcləri, hasilat xərcləri, nəqliyyat və istehsal xərcləri (normal fəaliyyət həcminə əsasən) daxildir.

**Əlavə Dəyər Vergisi**

Vergi orqanları satış və alış əməliyyatları üzrə əlavə dəyər vergisinin ("ƏDV") xalis ödənilməsinə icazə verir.

*ƏDV üzrə kreditor borcu*

ƏDV üzrə kreditor borcu hesabat tarixində əvəzləşdirilmiş alışlar üzrə ƏDV-ni çıxmaqla, satış üzrə ƏDV məbləğidir. Satış ilə bağlı ƏDV vergi orqanlarına təqdim edilən mallar (işlər və xidmətlər) üçün ödəmənin alındığı halda ödənilməli məbləğ kimi tanınır. Ödəmə malların (işlərin, xidmətlərin) təqdim edilməsinədək həyata keçirildikdə, vergi tutulan əməliyyatın vaxtı ödəmənin həyata keçirildiyi vaxt sayılır. Hesabat tarixində əvəzləşdirilməmiş satışlar üzrə ƏDV həmçinin ƏDV üzrə kreditor borcuna daxildir. Debitor borclarının dəyərsizləşməsi üzrə ehtiyat yaradıldıqda, dəyərsizləşmə üzrə ehtiyat lazım olduqda ƏDV daxil olmaqla, debitor borcunun ümumi məbləğində qeydə alınır. ƏDV üzrə müvafiq təxirə salınmış öhdəlik vergi məqsədləri üçün debitor borcu silinənə qədər saxlanılır.

*Əvəzləşdirilən ƏDV*

Əvəzləşdirilən ƏDV hesabat tarixində əvəzləşdirilməmiş alışlara aiddir. Əvəzləşdirilən ƏDV alışlar üçün ödəniş aparıldıqda satışlar üzrə ƏDV ilə əvəzləşdirilə bilər.

**Gəlirlərin tanınması**

Qrupun gəlirləri əsasən açıq məkanda reklam yayımının həyata keçirilməsinə müddətli icazələrin verilməsindən yığılan yayım haqqlarından və reklam daşıyıcılarının satışından

formalaşır. Gəlirlər xidmətlər və ya mallar üzrə nəzarət müştəriyə keçəndə Qrupun həmin xidmətlər və ya mallar üçün almağı gözlədiyi ödənişin məbləği ilə tanınır. Qrup, gəlirlərə dair razılaşmada əsas tərəf kimi çıxış etdiyi qənaətinə gəlmişdir, çünki adətən o, malları və ya xidmətləri müştəriyə ötürdükdən əvvəl, onlara nəzarət edir.

***İcazələrin verilməsindən daxil olan yayım haqqları***

Yayım haqqlarından formalaşan gəlir, həmin yayım hüquqlarının təmin edildiyi və icazələrin verilməsinə dair müqavilə tələblərinin yerinə yetirildiyi hesabat dövrünə məxsusdur. Müqavilə tələblərinin tamamlanma dərəcəsi müqavilə əsasında reklam yayımına icazə verilən ümumi müddət ərzində cari olaraq istifadə edilmiş müddətin payını nəzərdə tutur.

***Digər gəlirlər***

Əsas fəaliyyət növləri olmayan əməliyyatlardan digər gəlirlərə adətən bir fərqli icra öhdəliyi daxildir, bu da müştəri Qrupun fəaliyyətindən faydaları eyni zamanda aldığı və istifadə etdiyinə görə nəticələr metodu əsasında dövr ərzində yerinə yetirilir. Bununla bərabər Qrupun əsas fəaliyyəti ilə bağlı olmayan mal və xidmətlərin satışları ilə əlaqədar müqavilələrdən digər gəlirlər də əldə edilir. Bunlar konkret vaxtda yerinə yetirilir.

**Mənfəət vergisi**

Hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarında mənfəət vergisi hesabat tarixinə qüvvədə olan və ya əslində qüvvəyə minmiş müvafiq qanunvericiliyə uyğun olaraq hesablanmışdır. Mənfəət vergisi xərci cari və təxirə salınmış mənfəət vergisindən ibarətdir və bu və ya digər dövrdə vergi təsiri digər ümumi gəlirlərdə və ya bilavasitə kapitalda uçota alınan əməliyyatlar istisna olmaqla, mənfəət və ya zərər kimi əks etdirilir.

Cari mənfəət vergisi, cari və əvvəlki dövrlər üzrə vergiyə cəlb edilən mənfəət və ya zərər ilə bağlı vergi orqanlarına ödəniləcək və ya onlardan geri alınacaq məbləği təşkil edir. Mənfəət vergisi olmayan digər vergilər əməliyyat xərcləri kimi qeydə alınır.

**İşçilərə ödənişlər**

Əmək haqları, maaşlar, Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fonduna ödənişlər, ödənişli illik məzuniyyət və bülletenlər, mükafatlar və pul şəklində olmayan imtiyazlar Qrupun işçiləri tərəfindən müvafiq xidmətlərin göstərildiyi ildə hesablanır.

**Xarici valyutada əməliyyatlar**

Agentliyin əməliyyat valyutası onun fəaliyyət göstərdiyi iqtisadi mühitin valyutası olan Azərbaycan Manatıdır.`
Xarici valyutada olan monetar aktiv və öhdəliklər, hesabat tarixində mövcud olan ARMB-nın valyuta məzənnəsinə uyğun olaraq Azərbaycan Manatına çevrilir. Xarici valyutada aparılan əməliyyatlar isə əməliyyat tarixinə mövcud olan valyuta məzənnəsinə uyğun olaraq manat ekvivalentinə çevrilir. Bu konvertasiya zamanı yaranan gəlir və xərclər mənfəət və zərər hesabında xarici valyuta ilə əməliyyatlar üzrə gəlirlər/(zərər) sətrində göstərilir.

**Əlaqəli tərəflər**

Əlaqəli tərəflər haqqında məlumat 24 saylı *"Əlaqəli tərəflər barədə açıqlamalar"* adlı MUBS-na uyğun olaraq açıqlanır.

Dövlətin iqtisadi və sosial siyasəti Qrupun maliyyə vəziyyətinə, əməliyyat nəticələrinə və pul vəsaitlərinin hərəkətinə təsir edir.
Əlaqəli tərəflər öz aralarında əlaqəli olmayan tərəflərin apara bilmədiyi əməliyyatları həyata keçirə bilər. Bununla yanaşı, əlaqəli tərəflər arasında aparılan əməliyyatların şərtləri, müddətləri və məbləğləri əlaqəli olmayan tərəflər arasında aparılan əməliyyatlarla eyni olmaya bilər. Əlaqəli tərəflərlə aparılan əməliyyatların xarakterinə görə onlar kommersiya cəhətdən müstəqil tərəflər arasında həyata keçirilən əməliyyatların şərtlərinə uyğun hesab edilə bilməz.

## 3. UÇOT SİYASƏTİNİN TƏTBİQİ ZAMANI ƏHƏMİYYƏTLİ UÇOT TƏXMİNLƏRİ VƏ FƏRZİYYƏLƏR

Qrupun 2 saylı qeyddə təsvir olunan mühasibat uçotu prinsipləri tətbiq edilərkən rəhbərlik aktiv və öhdəliklərin digər mənbələrdən əldə edilə bilən balans dəyərlərinə dair mühakimələr, qiymətləndirmələr və fərziyyələri istifadə etməlidir. Qiymətləndirmələr və əlaqəli fərziyyələr ötən dövrlərdə toplanmış təcrübəyə, eləcə də münasib hesab olunan digər amillərə əsaslanır. Faktiki nəticələr bu təxminlərdən fərqlənə bilər.

Qiymətləndirmələr və onların əsasında dayanan fərziyyələr daim təhlil edilir. Uçot qiymətləndirmələrinə düzəlişlər yalnız müəyyən dövrə aiddirsə, həmin dövrdə tanınır, müəyyən dövrə və gələcək dövrlərə aiddirsə, həm cari, həm də gələcək dövrlərdə tanınır.

Növbəti maliyyə ilində aktiv və öhdəliklərin balans dəyərlərində əhəmiyyətli düzəlişlərin edilməsi ilə bağlı əhəmiyyətli risk yaradan, gələcək dövrlərə aid əsas fərziyyələr, eləcə də hesabat dövrünün sonuna qiymətləndirmə qeyri-müəyyənliyinin digər əsas mənbələri aşağıda təqdim edilir.

**Ticarət debitor borcları üzrə gözlənilən kredit zərərləri**

Ticarət debitor borcları üçün GKZ-ni hesablamaq məqsədilə Qrup ehtiyat matrisindən istifadə edir. Ehtiyat dərəcələri oxşar zərər sxemləri olan (məsələn, coğrafi baxımdan, məhsul növü, müştərinin növü və reytinqi, hər hansı kredit sığortası növü ilə əhatə) müxtəlif müştəri seqmentlərinin qruplaşmasına görə keçmiş günlərin sayına əsaslanır.

Ehtiyat matrisi ilk öncə Qrupun keçmiş dövrlərdə müşahidə edilə bilən defolt dərəcələrinə əsaslanır. Qrup, keçmiş dövrlərdə kredit zərəri ilə bağlı təcrübəni proqnoz məlumatlarına uyğunlaşdırmaq üçün matrisi dəqiqləşdirəcək. Məsələn, proqnoz maliyyə şəraitlərinin (məsələn ümumi yerli məhsul) növbəti ildə pisləşməsi, nəticədə sektordan defolt saylarının artması gözlənildiyi halda keçmiş dövrlər üzrə defolt dərəcələrində düzəlişlər edilir. Hər bir hesabat tarixində keçmiş dövrlər üzrə müşahidə edilən defolt dərəcələrində düzəlişlər edilir və proqnoz qiymətləndirmələrində dəyişikliklər təhlil edilir.

Keçmiş dövrlər üzrə müşahidə edilən defolt dərəcələri, proqnoz şəraitləri və GKZ arasında əlaqənin qiymətləndirilməsi əhəmiyyətli qiymətləndirmə təşkil edir. GKZ məbləği şəraitlərin dəyişməsinə və proqnoz iqtisadi şəraitlərə həssasdır. Həmçinin, Qrupun keçmiş dövrlər üzrə

kredit zərəri ilə bağlı təcrübəsi və iqtisadi şəraitlərin proqnozu müştərini gələcəkdə faktiki defolta uğramasını göstərməyə bilər.

**Təxirə salınmış vergi**

Təxirə salınmış vergi, öhdəlik metodundan istifadə etməklə, hesabat tarixində aktivlərin və öhdəliklərin vergi bazası və onların maliyyə hesabatları məqsədləri üçün göstərilmiş qalıq dəyərləri arasında mövcud olan bütün müvəqqəti fərqlər üzrə müəyyən edilir.

Təxirə salınmış vergi aktivlərinin dəyəri hər maliyyə vəziyyəti haqqında hesabat tarixində nəzərdən keçirilir və təxirə salınmış vergi aktivlərinin hamısının və ya bir hissəsini qarşılamaq üçün kifayət qədər vergiyə cəlb olunan mənfəətin mövcudluğu ehtimalı olmadığı halda azaldılır. Tanınmamış təxirə salınmış vergi aktivləri hər hesabat tarixində yenidən qiymətləndirilir və gələcək vergiyə cəlb olunacaq gəlirlər təxirə salınmış vergi aktivinin bərpa olunmasına imkan verdiyi dərəcədə tanınır.

Təxirə salınmış vergi aktivləri və öhdəlikləri, hər maliyyə vəziyyəti haqqında hesabat tarixinə qüvvədə olan və ya faktiki olaraq qüvvədə olan vergi dərəcələri (və vergi qanunları) əsasında aktivlərin satıldığı və ya öhdəliklərin yerinə yetirildiyi müddətdə tətbiq edilən vergi dərəcələri ilə ölçülür.

Təxirə salınmış vergi aktivləri və təxirə salınmış vergi öhdəlikləri, cari vergi aktivlərini cari vergi öhdəlikləri ilə əvəzləşdirmək üçün qanuni hüquq mövcud olduqda və təxirə salınmış vergilər eyni vergiyə cəlb olunan müəssisəyə aid olduqda əvəzləşdirilir.

Təxirə salınmış vergi aktivləri müvəqqəti fərqlərin istifadə oluna bilməsi üçün vergiyə cəlb edilən mənfəətin əldə edilməsi ehtimalının mövcud olacağı zaman hesablanır.

## 4. YENİ VƏ YENİDƏN İŞLƏNİLMİŞ STANDARTLARIN VƏ ŞƏRHLƏRİN QƏBUL EDİLMƏSİ

Cari ildə Qrup Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası (MUBSŞ) və MUBSŞ-un Beynəlxalq Maliyyə Hesabatlarının Şərhləri Komitəsi (BMHŞK) tərəfindən qəbul edilmiş, Qrupun fəaliyyəti üçün münasib olan və 31 dekabr 2021-ci il tarixində başa çatmış hesabat dövrlərinə şamil olunan bütün yeni və yenidən işlənilmiş standartları və onlara dair şərhləri qəbul etmişdir. Bu yeni standart və şərhlərin qəbul edilməsi Qrupun mühasibat uçotu siyasətinə, yəni cari və ya əvvəlki illər üzrə hesabat verilən məbləğlərə əhəmiyyətli təsirlər göstərməmişdir.

**Maliyyə hesabatlarının hazırlanması və təqdim olunması üzrə Konseptual Əsaslara düzəlişlər.** Yenidən işlənmiş Konseptual Əsaslara qiymətləndirməyə dair yeni bölmə, hesabatlarda maliyyə nəticələrinin əks etdirilməsinə dair tövsiyələr, təkmilləşdirilmiş anlayışlar və tövsiyələr (xüsusilə, öhdəliklər ilə bağlı anlayış) və maliyyə hesabatlarının hazırlanmasında idarəetmə rolu, ehtiyatlılıq və qiymətləndirmə ilə bağlı qeyri-müəyyənlik kimi mühüm məsələlərin izahı daxildir.

**Əhəmiyyətlilik anlayışının tərifi - MUBS 1 və MUBS 8 standartlarına dəyişikliklər.** Bu dəyişikliklər bundan əvvəlki MHBS standartlarında qeyd olunan anlayışa dair tövsiyələri əlavə etməklə, əhəmiyyətlilik anlayışı və onun tətbiq olunma qaydasını izah edir. Bundan əlavə,

həmin anlayışın izahı təkmilləşdirilmişdir. Dəyişikliklər, həmçinin əhəmiyyətlilik anlayışının bütün MHBS standartlarında uyğun şəkildə istifadəsini təmin edir. Məlumat o halda əhəmiyyətli hesab olunur ki, onun ümumi təyinatlı maliyyə hesabatlarında təqdim edilməməsi, təhrif olunması və ya anlaşıqlığmm çətinləşdirilməsinin əsas istifadəçilərin xüsusi olaraq hesabat verən müəssisəyə aid olan maliyyə məlumatları əsasında qəbul etdikləri qərarlara təsir etmə ehtimalı əsaslandırılmış şəkildə gözlənilsin.

**Biznes anlayışının tərifi - MHBS 3 standartına dəyişikliklər.** Bu dəyişikliklər biznes anlayışını dəyişdirir. Biznes resurslardan və birlikdə nəticə yaratmaq imkanı formalaşdıran əsas proseslərdən ibarətdir. Yeni təlimat erkən inkişaf mərhələsində olan və nəticə əldə etməyən şirkətlər də daxil olmaqla, resursların və əsas prosesin mövcudluğunu müəyyən etməyə imkan verən sistemi özündə əks etdirir. Müəssisənin biznes hesab edilməsi üçün heç bir nəticə olmadıqda, mütəşəkkil işçi qüvvəsi olmalıdır. "Nəticə" anlayışı müştərilərə təqdim edilən mallara və göstərilən xidmətlərə, eləcə də investisiya gəlirləri və digər gəlirlərin yaradılmasına diqqəti yönəltmək, xərclərin və digər iqtisadi faydaların azaldılması şəklində nəticələri nəzərə almamaq üçün məhdudlaşdırılmışdır. Bundan əlavə, bazar iştirakçılarının çatışmayan elementləri əvəz etməsi və ya əldə edilmiş biznesi və aktivləri inteqrasiya etməsi imkanının qiymətləndirilməsi artıq tələb olunmur. Müəssisə "konsentrasiya testi" tətbiq edə bilər. Əldə edilmiş ümumi aktivlərin ədalətli dəyəri bütövlükdə praktiki olaraq vahid aktiv (yaxud oxşar aktivlər qrupu) şəklində konsentrasiya edildiyi halda, əldə edilmiş aktivlər biznes hesab edilməyəcəkdir.

## 5. DƏRC OLUNMUŞ, LAKİN HAZIRDA QƏBUL OLUNMAMIŞ STANDARTLAR VƏ ŞƏRHLƏR

1 yanvar 2021-ci il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün məcburi xarakter daşıyan və Qrup tərəfindən vaxtından əvvəl tətbiq edilməyən bəzi yeni standartlar və onlara dair şərhlər dərc olunmuşdur.

- MHBS 17 "Sığorta Müqavilələri"
- MHBS 10 və MUBS 28-ə dəyişikliklər "İnvestor tərəfindən aktivlərin asılı və ya birgə müəssisələrə satılması və ya ötürülməsi"".

01 yanvar 2021-ci il tarixində və ya bu tarixdən sonra başlayan illik, dövrlər üçün qüvvəyə minir.
BMUSŞ tərəfindən müəyyən ediləcək tarixdə və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir.

Yuxarıda başqa cür nəzərdə tutulmadığı hallarda, yeni standartlar və şərhlərin Qrupun maliyyə hesabatlarına əhəmiyyətli dərəcədə təsiri gözlənilmir.

## 6. PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ

Pul vəsaitləri və onların ekvivalentləri aşağıdakılardan ibarət olmuşdur:

| *Azərbaycan Manatı ilə* | **31 Dekabr 2021** | **31 Dekabr 2020** |
|---|---|---|
| Tələb edilənədək bank qalıqları, AZN | 2,760,255 | 1,183,094 |

| | | |
|---|---|---|
| **Cəmi pul vəsaitləri və onların ekvivalentləri** | **2,760,255** | **1,183,094** |

1 yanvar 2008-ci il tarixindən başlayaraq dövlət vergi orqanları ƏDV depozit hesablarını və bu hesablar vasitəsilə əvəzləşdirilən və hesablanan ƏDV üzrə icbari ödəmələri tətbiq etmişdir. Bu qanunvericiliyə uyğun olaraq ƏDV depozit hesabındakı qalıq vergi orqanlarına 45 gün əvvəl bildiriş göndərməklə çıxarılır.

## 7. TİCARƏT VƏ DİGƏR DEBİTOR BORCLARI

Ticarət və digər debitor borclar aşağıdakılardan ibarət olmuşdur:

| *Azərbaycan Manatı ilə* | **31 Dekabr 2021** | **31 Dekabr 2020** |
|---|---|---|
| Ticarət debitor borcları | 2,142,019 | 1,566,001 |
| Dəyərsizləşmə üzrə ehtiyat | (86,267) | (150,424) |
| **Cəmi maliyyə aktivləri** | **2,055,752** | **1,415,577** |
| Təchizatçılara verilmiş avanslar | 169,829 | 55,923 |
| ƏDV Depozit hesabı | 121,809 | 266,088 |
| Əvəzləşdirilən əlavə dəyər vergisi | | 86,317 |
| Digər debitor borcları | | 143,169 |
| **Cəmi ticarət və digər debitor borcları** | **2,347,390** | **1,967,074** |

| *Azərbaycan Manatı ilə* | **31 Dekabr 2021** | **31 Dekabr 2020** |
|---|---|---|
| **İlin əvvəlinə qalıq** | **(150,424)** | **(134,858)** |
| İl ərzində tanınmış dəyərsizləşmə xərci | | (25,720) |
| Dəyərsizləşmə üzrə ehtiyat hesabına silinmə | 64,157 | 10,154 |
| **İlin sonuna qalıq** | **(86,267)** | **(150,424)** |

## 8. MAL-MATERİAL EHTİYATLARI

| *Azərbaycan Manatı ilə* | **31 Dekabr 2021** | **31 Dekabr 2020** |
|---|---|---|
| Satış üçün nəzərdə tutulmuş hazır məhsul | 1,110,199 | 583,440 |
| Xammal | 950,733 | |
| Digər | 2,541 | 11,619 |
| **Cəmi mal-material ehtiyatları** | **2,063,473** | **595,059** |

## 9. ƏMLAK VƏ AVADANLIQLAR

| *Azərbaycan Manatı ilə* | **Binalar və qurğular** | **Nəqliyyat vasitələri** | **Maşın və avadanlıq** | **Cəmi** |
|---|---|---|---|---|
| **İlkin dəyər** | | | | |
| **1 Yanvar 2020** | **1,055,189** | **2,319,435** | **2,001,652** | **5,376,276** |
| Əlavələr | 136,389 | 154,252 | 643,518 | 934,159 |
| **31 Dekabr 2020** | **1,191,578** | **2,473,687** | **2,645,170** | **6,310,435** |
| Əlavələr | | 545,474 | 61,183 | 606,657 |
| **31 Dekabr 2021** | **1,191,578** | **3,019,161** | **2,706,353** | **6,917,092** |
| **Yığılmış amortizasiya:** | | | | |
| **1 Yanvar 2020** | **(2,118)** | **(528,982)** | **(494,543)** | **(1,025,643)** |
| Amortizasiya xərci | (59,579) | (468,143) | (490,219) | (1,017,941) |
| **31 Dekabr 2020** | **(61,697)** | **(997,125)** | **(984,762)** | **(2,043,584)** |
| Amortizasiya xərci | 72,045 | (533,174) | (181,515) | (786,734) |
| **31 Dekabr 2021** | **(133,742)** | **(1,530,299)** | **(1,166,277)** | **(2,830,318)** |
| **Xalis balans dəyəri** | | | | |
| **31 Dekabr 2021** | **1,057,836** | **1,488,862** | **1,540,076** | **4,086,774** |
| **31 Dekabr 2020** | **1,129,881** | **1,476,562** | **1,660,408** | **4,266,851** |

## 10. QEYRİ-MADDİ AKTİVLƏR

| *Azərbaycan Manatı ilə* | **Proqram təminatı və Rəqəmsal məhsullar** | **Cəmi** |
|---|---|---|
| **İlkin dəyər:** | | |
| **1 Yanvar 2020** | **871,638** | **871,638** |
| Əlavələr | 527,134 | 527,134 |

| | | |
|---|---|---|
| **31 Dekabr 2020** | **1,398,772** | **1,398,772** |
| Əlavələr | 463,325 | 463,325 |
| Silinmələr | (7,546) | (7,546) |
| **31 Dekabr 2021** | **1,854,551** | **1,854,551** |
| **Yığılmış amortizasiya:** | | |
| **1 Yanvar 2020** | **(51,470)** | **(51,470)** |
| Amortizasiya xərci | (127,170) | (127,170) |
| **31 Dekabr 2020** | **(178,640)** | **(178,640)** |
| Amortizasiya xərci | (300,177) | (300,177) |
| **31 Dekabr 2021** | **(478,817)** | **(478,817)** |
| **Xalis balans dəyəri** | | |
| **31 Dekabr 2021** | **1,375,734** | **1,375,734** |
| **31 Dekabr 2020** | **1,220,132** | **1,220,132** |

## 11. TİCARƏT VƏ DİGƏR KREDİTOR BORCLARI

Ticarət və digər kreditor borclar aşağıdakılardan ibarət olmuşdur:

| *Azərbaycan Manatı ilə* | **31 Dekabr 2021** | **31 Dekabr 2020** |
|---|---|---|
| Ticarət kreditor borcları | 170,401 | 1,019,088 |
| **Cəmi maliyyə öhdəlikləri** | **170,401** | **1,019,088** |
| Müştərilərdən alınmış avanslar | 1,346,858 | 423,054 |
| Digər kreditor borcları | | 40,173 |
| **Cəmi ticarət və digər kreditor borcları** | **1,517,259** | **1,482,315** |

## 12. NİZAMNAMƏ FONDU VƏ EHTİYAT KAPİTALI

Agentliyin nizamnamə fondu 10,000 (on min) AZN-dir (31 Dekabr 2021: 10,000 AZN) və Dövlət büdcəsi vəsaiti hesabına formalaşmışdır.

Agentliyin nizamnaməsinə əsasən Agentliyin əmlakı təsisçi tərəfindən ödənilən nizamnamə fondundan, təsisçinin ona verdiyi digər əmlakdan, ilkin mərhələdə saxlanma xərclərinin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən ayrılan vəsaitdən, habelə fəaliyyətindən əldə olunmuş gəlirdən, ianələrdən, qrantlardan, cəlb edilən investisiyalardan və qanunla qadağan edilməyən digər vəsaitlərdən formalaşır.

Ehtiyat kapitalının 1,000,000 AZN (31 Dekabr 2021: 1,000,000 AZN) məbləğində olan hissəsini Agentliyin ilkin mərhələdə saxlanma xərclərinin maliyyələşdirilməsi məqsədilə

Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan ayırmalar təşkil edir.

Ehtiyat kapitalının qalan 1,629,689 AZN məbləğində olan hissəsini isə əvvəllər Qrupla eyni fəaliyyət növü ilə məşğul olmuş ayrı-ayrı Dövlət qurumlarından Qrupa köçürülmüş əmlak və avadanlıqların balans dəyəri təşkil edir.

## 13. İNSAN RESURSLARI ÜZRƏ XƏRCLƏR

İnsan resursları üzrə xərclər aşağıdakılardan ibarət olmuşdur:

| *Azərbaycan Manatı ilə* | **2021** | **2020** |
|---|---|---|
| Əmək haqqları və digər müavinətlər | 8,144,538 | 7,581,656 |
| Dövlət Sosial Müdafiə Fonduna ayırmalar | 1,891,940 | 1,741,891 |
| **Cəmi insan resursları üzrə xərclər** | **10,036,478** | **9,323,547** |

## 14. DİGƏR ƏMƏLİYYAT XƏRCLƏRİ

Digər əməliyyat xərcləri aşağıdakılardan ibarət olmuşdur:

| *Azərbaycan Manatı ilə* | **2021** | **2020** |
|---|---|---|
| Subpodratçıların xidmətləri | 608,647 | 962,843 |
| Ofis ləvazimatları və təchizat xərcləri | 226,684 | 297,957 |
| Sığorta xərcləri | 99,573 | 75,480 |
| Nümayəndəlik xərcləri | 66,863 | 73,269 |
| Peşəkar xidmətlər | 64,405 | 59,131 |
| Qida təchizat xərcləri | 10,471 | 47,050 |
| Bank komissiyaları | 65,723 | 45,062 |
| Kommunal xərclər | 37,587 | 30,362 |
| Digər | 134,158 | 323,423 |
| **Cəmi digər əməliyyat xərcləri** | **1,314,110** | **1,914,577** |

## 15. DİGƏR XƏRCLƏR

Digər xərclər aşağıdakılardan ibarət olmuşdur:

| *Azərbaycan Manatı ilə* | **2021** | **2020** |
|---|---|---|
| Ticarət debitor borcları üzrə dəyərsizləşmə xərcləri | 64,157 | - 25,720 |
| Digər debitor borcların silinməsi | - 53,348 | - 146,106 |
| Əsas vəsaitlərin silinməsindən xalis zərər | - | - |
| **Cəmi digər xərclər** | 10,809 | **- 171,826** |

## 16. KORPORATİV SOSİAL MƏSULİYYƏT XƏRCLƏRİ

Mənfəət və ya zərər hesababtında qeyd olunan 200 000.00 AZN Korporativ sosial məsuliyyət xərcləri 2021-ci il ərzində Yaşat Fonduna edilən ianədən ibarətdir.

## 17. MƏNFƏƏT VERGİSİ

Mənfəət və ya zərərdə qeydə alınan mənfəət vergisi xərci aşağıdakı komponentlərdən ibarət olmuşdur:

| *Azərbaycan Manatı ilə* | 2021 | 2020 |
|---|---|---|
| Cari il üzrə mənfəət vergisi xərci | | |
| Müvəqqəti fərqlərin yaranmasına və ya bərpasına görə təxirə salınmış verginin hərəkəti | | |
| **İl üzrə mənfəət vergisi xərci** | | |

Effektiv mənfəət vergisi dərəcəsi vergi qanunvericiliyinə uyğun mənfəət vergisi dərəcəsindən fərqlənir. Aşağıdakı cədvəldə vergi qanunvericiliyi əsasında mənfəət vergisi xərci faktiki xərclərlə tutuşdurulur:

| *Azərbaycan Manatı ilə* | 2021 | 2020 |
|---|---|---|
| **Mənfəət vergisi xərcindən əvvəl mənfəət** | **3,270,899** | **2,119,500** |
| Qanunvericiliklə müəyyən edilmiş 20% dərəcə ilə hesablanmalı olan mənfəət vergisi xərci | 654,180 | 423,900 |
| - Mənfəət vergisindən azad edilən xalis gəlirin vergiyə təsiri | (654,180) | (738,119) |
| Vergi zərərləri üzrə tanınmamıs vergi aktivinin<br>- Əvvəllər tanınmış təxirə salınmış verginin ləğvi | | 314.219 |
| **İl üzrə mənfəət vergisi xərci** | - | - |

Qrupun gəlirləri 1 yanvar 2020-ci il tarixindən etibarən Azərbaycan Respublikasının Vergi Məcəlləsində edilmiş müvafiq dəyişikliklərə əsasən mənfəət vergisindən müddətsiz olaraq azad olunmuşdur.

Təxirə salınmış mənfəət vergisi MHBS-na uyğun maliyyə hesabatlarının hazırlanması məqsədilə tanınmış aktiv və öhdəliklərin balans dəyəri ilə yerli vergi qanunvericiliyinə əsasən tanınmış belə məbləğlər arasındakı müvəqqəti fərqlərin effektini əks etdirir. Həmin müvəqqəti fərqlərdəki hərəkətlərin vergi effekti aşağıda göstərilir:

| *Azərbaycan Manatı ilə* | 1 Yanvar 2020 | Mənfəət və ya zərərdə tanınmış | 31 Dekabr 2020 | Mənfəət və ya zərərdə tanınmış | 31 Dekabr 2021 |
|---|---|---|---|---|---|

| | | | | | |
|---|---|---|---|---|---|
| **Çıxılan/(vergi tutulan) müvəqqəti fərqlərin vergiyə təsiri** | | | | | |
| Əmlak və avadanlıqlar | - | - | - | - | - |
| Qeyri-maddi aktivlər | - | - | - | - | - |
| **Xalis təxirə salınmış vergi öhdəliyi** | - | - | - | - | - |

## 18. MALİYYƏ RİSKLƏRİNİN İDARƏ EDİLMƏSİ

Qrupun müvafiq bacarıq, təcrübə və səlahiyyətləri olan rəhbərliyi risklərin idarə edilməsinə nəzarət edir və Qrupun ümumi vəziyyəti üzrə müntəzəm monitorinqi həyata keçirir. Risklərin idarəedilməsi üzrə bu proses Qrup üçün çox önəmlidir və Qrupda çalışan aparıcı mütəxəssislər vəzifələrinə uyğun risk həcminə görə məsuliyyət daşıyırlar.

Qrupun əsas maliyyə öhdəlikləri ticarət kreditor borclarıdır. Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri və ticarət və digər debitor borcları isə Qrupun əsas maliyyə aktivləridir. Həm əsas maliyyə öhdəlikləri, həm də maliyyə aktivləri birbaşa Qrupun əməliyyatlarından irəli gəlir.

Fəaliyyətin adi gedişində Qrup kredit, likvidlik və bazar risklərinə məruz qalır. Bazar riski alınan və satılan malların və xidmətlərin dəyişkən qiymətləri, digər xammalların qiymətləri, valyuta məzənnələri və faiz dərəcələri dəyişmələri nəticəsində yaranır. Bazar qiymətlərindəki bu cür dəyişikliklər həcmindən asılı olaraq Qrupun maliyyə vəziyyətinin dəyişməsinə səbəb ola bilər. Qrupun ümumi risk idarəetmə proqramı maliyyə bazarlarının qeyrimüəyyənliklərini əhatə edir və Qrupun maliyyə fəaliyyətinə potensial mənfi təsiri azaltmağı nəzərdə tutur. Maliyyə nəticələrinə təsir edə bilən müxtəlif risklərin səmərəli şəkildə idarə edilməsi üçün Qrupun əsas strategiyası güclü maliyyə mövqeyinin qorunub saxlanmasından ibarətdir. İdarəetmə üzrə müəyyən edilmiş rəsmi prosedurlarına uyğun olaraq Qrupun rəhbərliyi maliyyə risklərini cari bazar mövqeyinə istinadən müəyyən edir və qiymətləndirir.

**Bazar riski**

Bazar riskləri ümumi və xüsusi bazar hərəkətlərinin təsirinə məruz qalan (i) xarici valyuta, (ii) faiz hesablanan aktivlər və öhdəliklərin açıq mövqelərindən irəli gəlir. Rəhbərlik qəbul edilə bilən riskin dəyəri üzrə limitlər müəyyən edir və bunların üzərində müntəzəm monitorinq aparır. Bununla bərabər, bu yanaşmadan istifadə daha əhəmiyyətli bazar hərəkətləri olanda bu limitlərdən kənara çıxan zərərlərin qarşısını alınır.

Xarici valyuta üzrə məzənnə riskləri əsasən gələcək kommersiya əməliyyatlarından, aktiv və öhdəliklər funksional valyutadan fərqli valyutada ifadə edildikdə, uçota alınmış maliyyə aktiv və maliyyə öhdəliklərindən yaranır. 31 dekabr 2021-ci və 2020-ci il tarixlərinə Qrupun əhəmiyyətli dərəcədə funksional valyutadan fərqli valyutada ifadə edilən maliyyə aktiv və maliyyə öhdəlikləri olmamışdır.

Faiz dərəcələrində dəyişikliklər əsasən borc öhdəliklərinin ədalətli dəyərinə (sabit faizli borclar)

və ya gələcək pul vəsaitlərinin hərəkətinə (dəyişkən faizli borclar) təsir edir. Rəhbərlik Qrupun risklərinin sabit və ya dəyişkən faiz dərəcələri üzrə təsirini müəyyən etmək üçün rəsmi siyasətə malik deyil. Lakin, yeni borc öhdəliklərinin cəlb edilməsi zamanı rəhbərlik ödəniş tarixinədək gözlənilən müddət ərzində həmin borc öhdəlikləri üzrə sabit və ya dəyişkən faiz dərəcələrindən hansının daha əlverişli olacağına dair qərar qəbul etmək üçün öz mülahizələrindən istifadə edir. 31 dekabr 2021-ci və 2020-ci il tarixlərinə Qrupun dəyişən faiz dərəcəsi riskinə məruz qala biləcək faiz hesablanan öhdəlikləri və aktivləri olmamışdır.

**Kredit riski**

Kredit riski qarşı tərəfin müqavilə üzrə öhdəliklərini yerinə yetirə bilmədiyi təqdirdə Qrupa dəyə biləcək potensial maliyyə zərəridir.

Qrupun kredit riskinə məruz qalan maliyyə alətləri ilk növbədə pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri və ticarət debitor borclarından ibarətdir.

Qrup pul vəsaitlərini Azərbaycan Respublikasında tanınmış maliyyə təşkilatlarında saxlayır. Qrup hesablarının olduğu bankların statusuna daim nəzarət edir.

Qrupun məruz qaldığı kredit riskinin maksimum dərəcəsi maliyyə vəziyyəti haqqında konsolidasiya edilmiş hesabatda maliyyə aktivlərinin balans dəyəri üzrə əks etdirilir və aşağıdakı cədvəldə aktivlərin kateqoriyalarına görə təsnifləşdirilir:

| *Azərbaycan Manatı ilə* | **31 Dekabr 2021** | **31 Dekabr 2020** |
|---|---|---|
| Pul vəsaitləri və onların ekvivalentləri (Qeyd 6) | 2,760,255 | 1,183,094 |
| Ticarət debitor borcları, xalis (Qeyd 7) | 2,347,390 | 1,967,074 |
| Vergilər üçün qabaqcadan ödəmələr | 318,532 | 103,936 |
| **Cəmi maksimal kredit riski** | **5,426,177** | **3,254,104** |

Müştərinin kredit riski Qrupun müştərinin kredit riskinin idarə edilməsinə dair təsis edilmiş siyasəti, prosedurları və nəzarət sisteminə uyğun olaraq hər bir təsərrüfat bölməsi tərəfindən idarə edilir. Müştərinin kreditinin keyfiyyəti geniş kredit reytinqi cədvəli əsasında qiymətləndirilir və həmin qiymətləndirməyə uyğun olaraq fərdi kredit limitləri müəyyən edilir.

Hər hesabat tarixində gözlənilən kredit zərərlərini ölçmək üçün ehtiyat matrisi istifadə etməklə qiymətləndirmə təhlili aparılır. Ehtiyat dərəcələri oxşar zərər sxemləri olan (məsələn, coğrafi baxımdan, məhsul növü, müştərinin növü və reytinqi, hər hansı kredit sığortası növü ilə əhatə) müxtəlif müştəri seqmentlərinin qruplaşmasına görə keçmiş günlərin sayına əsaslanır. Hesablama mümkünlük baxımından ölçülmüş nəticələri, pulların vaxt dəyərini və hesabat tarixində keçmiş hadisələr haqqında mövcud olan əsaslı və təsdiqlənə bilən məlumatı, cari şəraitləri və gələcək iqtisadi şəraitlərin proqnozlarını əks etdirir.

**Likvidlik riski**

Likvidlik riski Qrupun ödəmə vaxtı çatmış maliyyə öhdəliklərinin yerinə yetirə bilməyəcəyi təqdirdə yaranan riskdir. Likvidliyin idarə edilməsinə Qrupun yanaşması həm adi, həm də qeyri-standart şəraitdə, məqbul olmayan zərər çəkmədən və ya Qrupun nüfuzuna ziyan vurmadan, öhdəlikləri yerinə yetirməli olanda kifayət qədər likvidliyi təmin etməkdən ibarətdir. Likvidlik riskini idarə edərkən Qrup kifayət qədər pul ehtiyatları və borc öhdəlikləri saxlayır, proqnozlaşdırılmış və faktiki pul vəsaitlərinin hərəkətinə davamlı olaraq nəzarət edir.

Likvidlik riskinin düzgün idarə olunması funksiyasına kifayət qədər dövriyyə kapitalının saxlanması və bazar mövqelərinin bağlana bilməsi daxildir. Rəhbərlik, Qrupun likvidlik ehtiyatı üzrə davamlı proqnozlara gözlənilən pul vəsaitlərinin hərəkətinə əsasən nəzarət edir.

Qrupun bütün maliyyə öhdəlikləri qeyri-törəmə maliyyə alətlərindən ibarətdir. Aşağıdakı cədvəldə Qrupun maliyyə öhdəlikləri maliyyə vəziyyəti haqqında konsolidasiya edilmiş hesabat tarixindən müqavilədə nəzərdə tutulan ödəmə tarixinədək qalan dövr üzrə müvafiq ödəmə müddətlərinə görə təsnifləşdirilir. Cədvəldə göstərilən məbləğlər müqavilədə nəzərdə tutulan diskont edilməmiş pul vəsaitlərinin hərəkətini əks etdirir. Diskontlaşmanın təsiri əhəmiyyətli olmadığı üçün 12 ay ərzində ödənilməli olan qalıqlar təxminən onların balans dəyərinə bərabərdir.

31 dekabr 2021-ci il tarixinə maliyyə öhdəliklərin ödəniş təhlili aşağıda göstərilən kimi olmuşdur:

| *Azərbaycan Manatı ilə* | **3 aydan az** | **3-12 ay** | **Cəmi** |
|---|---|---|---|
| Ticarət kreditor borcları | 1,517,259 | | 1,517,259 |
| **Cəmi diskont edilməmiş maliyyə öhdəlikləri** | **1,517,259** | | **1,517,259** |

31 dekabr 2020-cu il tarixinə maliyyə öhdəliklərin ödəniş təhlili aşağıda göstərilən kimi olmuşdur:

| *Azərbaycan Manatı ilə* | **3 aydan az** | **3-12 ay** | **Cəmi** |
|---|---|---|---|
| Ticarət kreditor borcları | 1,482,315 | | 1,482,315 |
| **Cəmi diskont edilməmiş maliyyə öhdəlikləri** | **1,482,315** | | **1,482,315** |

**Maliyyə alətlərinin ədalətli dəyəri**

Maliyyə aktivlərinin və öhdəliklərinin ədalətli dəyəri alətin könüllü tərəflər arasında məcburi və ya ləğv etmə satışı olmayan cari əməliyyatlar zamanı mübadilə edilə bildiyi məbləğlə daxil edilir. Maliyyə alətlərinin təxmin edilən ədalətli dəyəri Qrup tərəfindən mövcud bazar məlumatlarından (əgər mövcud olarsa) və müvafiq qiymətləndirmə metodlarından istifadə etməklə müəyyən edilmişdir. Lakin, təxmin edilən ədalətli dəyərin müəyyən edilməsi üçün bazar məlumatlarını şərh edərkən peşəkar mülahizələr irəli sürmək vacibdir. Maliyyə alətlərinin

ədalətli dəyərini müəyyən edərkən rəhbərlik bütün mövcud bazar məlumatlarından istifadə edir.

Aşağıdakı cədvəldə konsolidasiya edilmiş maliyyə hesabatlarında əks etdirilmiş maliyyə alətləri balans dəyərləri və ədalətli dəyər sinifləri üzrə müqayisə edilir:

| | **31 Dekabr 2021** | |
|---|---|---|
| *Azərbaycan Manatı ilə* | **Balans** | **Ədalətli** |
| Pul vəsaitləri və onların ekvivalentləri (Qeyd 6) | 2,760,255 | 2,760,255 |
| Ticarət debitor borcları, xalis (Qeyd 7) | 2,347,390 | 2,347,390 |
| Qabaqcadan ödənilmiş vergilər | 318,532 | 318,532 |
| **Cəmi maliyyə aktivləri** | **5,426,177** | **5,426,177** |
| Ticarət kreditor borcları | 1,517,259 | 1,517,259 |
| Vergi öhdəlikləri | 163,416 | 163,416 |
| **Cəmi maliyyə öhdəlikləri** | **1,680,675** | **1,680,675** |

| | **31 Dekabr 2020** | |
|---|---|---|
| *Azərbaycan Manatı ilə* | **Balans** | **Ədalətli** |
| Pul vəsaitləri və onların ekvivalentləri (Qeyd 6) | 1,183,094 | 1,183,094 |
| Ticarət debitor borcları, xalis (Qeyd 7) | 1,967,074 | 1,967,074 |
| Vergilər üçün qabaqcadan ödəmələr | 103,936 | 103,936 |
| **Cəmi maliyyə aktivləri** | **3,254,104** | **3,254,104** |
| Ticarət kreditor borcları | 1,482,315 | 1,482,315 |
| Vergi öhdəlikləri | 119,366 | 119,366 |
| **Cəmi maliyyə öhdəlikləri** | **1,601,681** | **1,601,681** |

Ədalətli dəyərlər qiymətləndirilərkən, aşağıdakı metod və fərziyyələr istifadə edilmişdir:

(i) Qısamüddətli maliyyə aktivləri və öhdəlikləri, əsas etibarı ilə bu alətlərin qısamüddətli olduğuna görə, balans dəyərlərini təxmin edir;
(ii) Uzunmüddətli müəyyən dərəcəli və dəyişən dərəcəli debitor borcları/borc öhdəlikləri Qrup tərəfindən faiz dərəcələri, ölkə üzrə xüsusi risk amilləri, müştərinin fərdi krediti ödəmə qabiliyyəti və maliyyələşdirilən layihənin risk xüsusiyyətləri kimi parametrlərə əsaslanaraq Səviyyə 3-ün giriş məlumatlarından istifadə etməklə qiymətləndirilir.

## 19. POTENSİAL ÖHDƏLİKLƏR, TƏƏHHÜDLƏR VƏ ƏMƏLİYYAT RİSKLƏRİ

**Qrupun əməliyyat mühiti**

Azərbaycan iqtisadi islahatları aparmağa və hüquqi, vergi və nizamlayıcı infrastrukturu təkmilləşdirməyə davam edir. Azərbaycan iqtisadiyyatının gələcək sabitliyi önəmli dərəcədə

islahatlardan, Hökumətin gördüyü iqtisadi, maliyyə və monetar tədbirlərinin effektivliyindən, xam neftin qiymətindən və Azərbaycan manatının sabitliyindən asılıdır.

Azərbaycan iqtisadiyyatı neft qiymətlərinin aşağı düşməsi və Azərbaycan manatının 2015-ci il ərzində devalvasiyasının mənfi təsirinə məruz qalmışdır. Bu, kapital əldə etmək imkanlarının məhdudlaşması, kapital dəyərinin artması, inflyasiya və iqtisadi artımın qeyri-müəyyənliyi kimi amillərə səbəb olmuşdur.

Bu çətinliklərə cavab olaraq, Azərbaycan hökuməti islahatları sürətləndirmək və maliyyə sisteminə dəstək vermək planlarını açıqlamışdır. 2016-cı ildə Azərbaycan Respublikasının Prezidenti "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri"ni təsdiqləmişdir. Yol xəritəsi 2016-2021-ci illərdə inkişaf strategiyasını, 2025-ci ilə qədər uzunmüddətli perspektivləri və 2025-ci ildən sonrakı dövrə nəzəri əhatə edir.
Qrupun rəhbərliyi cari şəraitdə baş verən bu cür dəyişiklikləri izləməkdədir və Qrupun yaxın gələcəkdə fəaliyyətinin davamlılığı və inkişafını dəstəkləmək üçün lazım hesab etdiyi ehtiyat tədbirlərini görməkdədir.
Rəhbərlik inanır ki, hal-hazırda Qrupun fəaliyyətinin sabitliyini təmin etmək üçün bütün münasib tədbirlər görülür. Buna baxmayaraq, yuxarıda təsvir edilmiş sahələrdə vəziyyətin gözlənilməz dərəcədə pisləşməsi Qrupun nəticələri və maliyyə vəziyyətinə hazırda dəqiq müəyyən edilə bilməyən mənfi təsir göstərə bilər.

Bu qeyri-müəyyənliklərin gələcəkdə aydınlaşdırılmasından yarana biləcək hər hansı düzəlişlər hazırkı maliyyə hesabatlarında əks etdirilməmişdir. Belə düzəlişlər (əgər olarsa), məlum olduğu və təxmin edilə bildiyi dövrdə hesabatda göstəriləcəkdir.

**Vergi qanunvericiliyi**
Azərbaycan vergi qanunvericiliyi müəyyən məqamlarda müfəssəl deyil və bəzi maddələri müxtəlif formada şərh oluna bilər. Bu da vergi nümayəndələrinə qanunu öz yanaşmalarına görə şərh etməyə imkan verir. Adətən vergi nümayəndələri qanunu heç də vergi ödəyicisinin xeyrinə şərh etmədikləri üçün vergi ödəyiciləri öz hüquqlarını müdafiə etmək üçün məhkəməyə müraciət etməli olurlar. Qeyd edilməlidir ki, vergi nümayəndələri qanunverici orqanlar tərəfindən nəşr olunmuş, "əsaslandırılmamış vergi güzəşti", "əməliyyatların ilkin kommersiya məqsədləri" və "əməliyyatların kommersiya məqsədləri" konsepsiyalarına əsaslanan dəqiqləşmələr apara bilərlər.

Bu cür qeyri-müəyyənlik Qrupun qrantlardan əldə etdiyi gəlirlərə vergi yanaşmasına da aid edilə bilər. Rəhbərlik əmindir ki, tətbiq olunan bütün vergilər hesablanmışdır və buna müvafiq olaraq ehtiyat yaratmağa ehtiyac yoxdur.

Adətən, vergi ödəyiciləri audit ilindən əvvəlki üç təqvim ilinə qədər müddətə vergi auditinə cəlb oluna bilərlər. Lakin, tamamlanmış vergi auditi, əlavə olaraq yuxarı səlahiyyətli vergi müfəttişləri tərəfindən onlara tabe vergi müfəttişlərinin keçirdiyi vergi auditlərinin nəticələrinə görə növbəti əlavə vergi auditinin aparılmasını istisna etmir. Həmçinin Azərbaycan Konstitusiya Məhkəməsinin şərhlərinə müvafiq olaraq məhkəmə vergi ödəyicisinin vergi yoxlamasına qarşı çıxdığı və ya mane olduğu hallar aşkar edərsə vergi öhdəliklərinə görə limitlər bəndi vergi qanunvericiliyindən irəli gələrək 3 ildən çox tətbiq oluna bilər.

## 20. ƏLAQƏLİ TƏRƏFLƏRLƏ ƏMƏLİYYATLAR VƏ QALIQLAR

Tərəflər o zaman əlaqəli hesab olunur ki, onlar ümumi nəzarət altında olsun, onlardan biri digərinə nəzarət etmək imkanına malik olsun, maliyyə-təsərrüfat fəaliyyəti ilə bağlı məsələlərə dair qərar qəbul edərkən digər tərəfə əhəmiyyətli təsir göstərə bilsin və ya ona birgə nəzarət etsin. Əlaqəli tərəflər ilə hər hansı mümkün münasibətlər nəzərdən keçirilərkən, həmin münasibətlərin mahiyyətinin onların hüquqi formasından üstünlüyü prinsipi tətbiq olunur.

Qrupun əhəmiyyətli əməliyyatlar apardığı və ya əhəmiyyətli qalıqlara malik olduğu əlaqəli tərəflərlə əməliyyatlar aşağıdakılardan ibarət olmuşdur:

| | 2021 | | 2020 | |
|---|---|---|---|---|
| *Azərbaycan Manatı ilə* | **Əlaqəli tərəflərlə olan əməliyyatlar və qalıqlar** | **Konsolidasiya edilmiş maliyyə hesabatlarında bu bənd üzrə cəmi məbləğ** | **Əlaqəli tərəflərlə olan əməliyyatlar və qalıqlar** | **Konsolidasiya edilmiş maliyyə hesabatlarında bu bənd üzrə cəmi məbləğ** |
| **Reklam haqqlarından gəlir:** | | | | |
| - Dövlət və onun nəzarətində olan müəssisələr | 346,637 | 15,754,693 | 634,575 | 15,658,127 |
| **Digər gəlir:** | | | | |
| - Dövlət və onun nəzarətində olan müəssisələr | 470,996 | 470,996 | 323,345 | 435,467 |
| **Ticarət və digər debitor borcları:** | | | | |
| - Dövlət və onun nəzarətində olan müəssisələr | 21,861 | 2,055,752 | 0 | 1,702,964 |